# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* *№ 21 (1366), 22 - 24 may 2018-ci il* *Qəzet 2001-ci ildən çıxır.*


## Avropa Gənclər Olimpiya Festivalının 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Avropa Olimpiya Komitəsinin təşəbbüsü ilə 2019-cu il 20-28 iyul tarixlərində Avropa Gənclər Olimpiya Festivalının Bakı şəhərində keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu, Azərbaycanın idman siyasətinin növbəti qələbəsi və beynəlxalq federasiyaların ölkəmizdə aparılan işlərə, həmçinin idman və bədən tərbiyəsi sahəsində nailiyyətlərimizə verilən qiymətin daha bir təzahürüdür. Respublikamızın artan potensialı nəticəsində son illər Azərbaycanda beynəlxalq miqyaslı tədbirlərin, o cümlədən bir çox idman növləri üzrə dünya və Avropa çempionatlarının, dünya kuboku və Qran-Pri yarışlarının uğurlu təşkilinin ənənəvi hal alması Avropa Gənclər Olimpiya Festivalının da yüksək səviyyədə keçiriləcəyinə əminlik yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2019-cu il 20-28 iyul tarixlərində Avropa Gənclər Olimpiya Festivalının Bakı şəhərində layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Avropa Gənclər Olimpiya Festivalının 2019-cu il 20-28 iyul tarixlərində Bakı şəhərində keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Təşkilat Komitəsi sədrinin müavini**

Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

**Təşkilat Komitəsinin üzvləri**

Yusuf Məmmədəliyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri

Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının vergilər naziri

Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri

Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət naziri

Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri

Ceyhun Bayramov - Azərbaycan Respublikasının təhsil naziri

Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Mədət Quliyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Vüsal Hüseynov - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Cahangir Əsgərov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

Etibar Pirverdiyev - "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Balababa Rzayev - "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri

Çingiz Hüseynzadə - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

Anar Ələkbərov - Heydər Əliyev Mərkəzinin direktoru

Vüsal Kərimli - Bakı Nəqliyyat Agentliyinin direktoru

Ülvi Mehdiyev - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

Ağacan Əbiyev - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin baş katibi

Xəzər İsayev - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

Azər Əliyev - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin baş katibinin köməkçisi

Fərid Mansurov - Olimpiya çempionu.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Təşkilat Komitəsi 2019-cu il 20-28 iyul tarixlərində Avropa Gənclər Olimpiya Festivalının Bakı şəhərində keçirilməsinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 may 2018-ci il.***

## Samboçularımız II Avropa Oyunlarına üç lisenziya qazanıblar

Mayın 20-də Yunanıstanın paytaxtı Afinada sambo üzrə Avropa çempionatına yekun vurulub. 2019-cu ildə Belarusun paytaxtı Minskdə təşkil olunacaq II Avropa Oyunlarına lisenziya verən yarışda ölkəmizi 9 samboçu təmsil edib. Millimiz çempionatda Azərbaycan Sambo Federasiyasının prezidenti Ceyhun Məmmədovun rəhbərliyi altında yarışıb.



Çempionatın ilk günündə sambo yarışlarında Emil Həsənov (68 kq), döyüş sambosunda isə Nəbi Məmmədov (100 kq) üçüncü yerə çıxıb. İkinci yarış günündə Azərbaycan millisi daha bir medal qazanıb. Belə ki, 57 kiloqram çəki dərəcəsində çıxış edən Mehman Xəlilov bürünc medala layiq görülüb.

Çempionatın sonuncu günündə Azərbaycan millisi daha bir medala sahib çıxıb. 62 kq çəki dərəcəsində mübarizə aparan Cavidan Qarayev Avropa çempionatının bürünc medalın qazanıb. Beləliklə, millimiz II Avropa Oyunlarına 3 lisenziya əldə edib.

## Bakıda "Real Madrid Fondu Azərbaycan" sosial futbol məktəbinin açılışı olub

Mayın 17-də Olimpiya növləri üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində "Real Madrid Fondu Azərbaycan" sosial futbol məktəbinin açılışı olub.



Mərasimdə gənclər və idman naziri Azad Rəhimov, AFFA-nın vitse-prezidenti Rauf Əliyev, Real Madrid Fondunun nümayəndələri - "Real Madrid" futbol klubunun elçisi Rikardo Qalleqo və Fondun Avropa regionu üzrə baş meneceri xanım Elena Fernandez iştirak ediblər.

*(ardı 2-ci səhifədə)*

## Bakı-2018 II Beynəlxalq həmrəylik tennis çempionatına dair iclas keçirilib

Mayın 16-da Milli Olimpiya Komitəsində iyul ayında Bakının ev sahibliyi edəcəyi II Beynəlxalq həmrəylik tennis çempionatına dair iclas keçirilib.

İclasda yerli Əməliyyat Komitəsinin üzvləri, Azərbaycan Tennis Federasiyasının nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində fəaliyyət planına nəzər salınıb, Milli Olimpiya Komitəsi və Azərbaycan Tennis Federasiyası arasında mütəşəkkil şəkildə tədbirə hazırlıq planı təsdiqlənib.

Çempionat zamanı tələb olunan nəqliyyat, qidalanma, yerləşmə və digər mühüm məqamlara toxunulub.

Xatırladaq ki, II Beynəlxalq həmrəylik tennis çempionatı iyulun 23-28-də keçiriləcək. Çempionat Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının irsini davam etdirmək, İslam aləmində idmana marağı artırmaq məqsədini daşıyır.

## Bakıda keçiriləcək final oyununun ilk simvolik bileti AFFA prezidentinə təqdim olunub

UEFA Avropa Liqasının 2019-cu ildə Bakı Olimpiya Stadionunda təşkil olunacaq final oyununun ilk simvolik bileti AFFA prezidentinə təqdim edilib.

Fransanın Lion şəhərində, "Stade de Lyon" stadionunda "Marsel" (Fransa) - "Atletiko" (İspaniya) komandaları arasında keçirilən UEFA Avropa Liqası turnirinin 2017/2018-ci il mövsümünün final oyunundan öncə arenada UEFA-nın prezidenti Aleksander Çeferin AFFA prezidenti Rövnəq Abdullayevlə görüşüb.




Təqdimatda UEFA-nın baş katibi Teodor Teodoridis və AFFA-nın baş katibi Elxan Məmmədov da iştirak edib.

Xatırladaq ki, UEFA Avropa Liqasının 2018/2019-cu il mövsümünün final oyununun Bakı Olimpiya Stadionunda keçirilməsi barədə qərar UEFA İcraiyyə Komitəsinin 2017-ci il sentyabrın 20-də keçirilmiş iclasında qəbul olunub.

## Anons


Yeniyetmə güləşçimiz olimpiadaya vəsiqə qazanıb

Dünya çempionatının başlamasına iki həftə qalıb
Səh. 2

"Buenos-Ayres-2018 əvvəlki Olimpiya Oyunlarından fərqli olacaq"
Səh. 3

Dopinqlə mübarizənin strateji inkişaf istiqamətləri müzakirə edilib
Səh. 4


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU


**Fiziki və mənəvi tərbiyə milli dəyərlərə əsaslanır**
Səh. 5

# Bakıda “Real Madrid Fondu Azərbaycan” sosial futbol məktəbinin açılışı olub

(əvvəli 1-ci səhifədə)

Gənclər və idman naziri Azad Rəhimov Azərbaycanda futbolun inkişafının daim dəstəkləndiyini, idmanın bu növünün inkişafına dair Dövlət Proqramının uğurla icra edildiyini vurğulayıb. Bu məktəbin açılışının Azərbaycanda uşaq futbolunun inkişafında əhəmiyyətini xüsusi qeyd edən nazir deyib: “Real Madrid” futbol klubu dünyada öz uğurları və təcrübəsi ilə seçilir. Belə bir klubun məktəbində futbol dərsləri almaq hər bir uşağın inkişafı və gələcək karyerası üçün uğurlu addımdır”.

“Real Madrid” futbol klubunun elçisi Rikardo Qalleqo çıxışında beş illik səmərəli əməkdaşlıqdan məmnunluq duyduğunu vurğulayaraq deyib: “Gənclər və İdman Nazirliyi, “İnkişaf Naminə İdman” İctimai Birliyi və Real Madrid Fondu bir komandadır. Bu sosial komanda Azərbaycanda uşaqların gələcəyini formalaşdırmaq üçün çalışır. Biz dünyanı daha yaxşı məkana çevirəcək, hörmət, motivasiya, çalışqanlıq, bərabərlik, sağlamlıq, əməkdaşlıq, məsuliyyət və həmrəyliyə əsaslanan çempionluğumuzu qazanmalıyıq”.

Azərbaycan Gənclər və İdman Nazirliyinin və Real Madrid Fondunun birgə layihəsi olan sosial futbol məktəbi 2013-cü ildən fəaliyyət göstərir. 2013-cü ildə imzalanmış əməkdaşlıq müqaviləsinə uyğun olaraq, yaradılan məktəb Real Madrid Fondunun MDB məkanında birinci, Avropada səkkizinci layihəsi olub. 2013-2017-ci il tədris müddətini əhatə edən ilk mərhələdə görülən işlərin uğurlu olması ilə alaqədar tərəflər əməkdaşlığı davam etdirmək qərarına gəliblər.

Bu ilin yanvarında yeni müqavilə imzalanıb. Beləliklə, “Real Madrid Fondu Azərbaycan” sosial futbol məktəbi növbəti dörd il ərzində ölkədə futbolun inkişafına və kütləviliyinə dəstək verməkdə davam edəcək.

Layihənin əsas tərəfdaşları Gənclər və İdman Nazirliyi ilə Real Madrid Fondudur. Əsas icraedici tərəfdaş isə “İnkişaf Naminə İdman” İctimai Birliyidir.

Məktəbdə dörd yaş qrupu üzrə komandalarda 80 uşaq məşqlərə cəlb olunur. Məşqlər həftədə iki dəfə - cümə axşamı və şənbə günlər olmaqla 267 saylı məktəbin və “Pioner” futbol məktəbinin meydançalarında keçirilir. Məşqlər ödənişsizdir.

# Pəhləvanlarımız hərbçilərin dünya çempionatından 11 medalla qayıdıblar



Mayın 14-19-da Rusiyanın paytaxtı Moskvada hərbçilərin güləş üzrə 33-cü dünya çempionatı uğurla yekunlaşıb. Yarışlarda dünyanın 22 ölkədən 350-dən çox idmançı iştirak edib. Yarış iştirakçılarının yarıdan çoxu Olimpiya, dünya və Avropa çempionatlarının mükafatçıları olub. Dünya çempionatında Azərbaycanı təmsil edən Mərkəzi Ordu İdman Klubunun (MOİK) komandası vətənə 11 (2 qızıl, 3 gümüş və 6 bürünc) medalla qayıdıb. Komandamız bu göstərici üzrə çempionatda iştirak edən 22 ölkə arasında üçüncü yeri tutub. Bu uğura görə komandaya kubok təqdim edilib.

MOİK komandasını çempionatda sərbəst güləş yarışlarında 9, yunan-Roma güləşi üzrə 9, qadın güləşi üzrə isə 3 idmançı təmsil edib. İdmançılarımızdan döşək üzərinə ilk olaraq MOİK-in üzvü Sona Tumarxanova çıxıb. 50 kq çəki dərəcəsində mübarizə aparan idmançımız Monqolustan güləşçisi N.Azjarqala 12:1 hesabı ilə qalib gələrək çempionatda üçüncü yeri tutub. İdmançımız bununla da çempionatda milli komandamızın aktivinə ilk medalı yazdırıb. İkinci bürünc medalı isə Ağahüseyn Mustafayev qazanıb. 65 kq çəki dərəcəsində mübarizə aparan güləşçimiz İran idmançısı Biyabani Peymana qalib gəlib.

Komandamızın aktivinə üçüncü bürünc medalı Coşqun Əzimov yazdırıb. İdmançımız bürünc medal uğrunda görüşdə Macarıstan təmsilçisi Lukas Botondu 10:0 hesabı ilə məğlub edərək təmiz qələbə qazanıb.

4-cü bürünc medalı komandamıza MOİK-in zabiti Ağahüseyn Mustafayev qazandırıb. 65 kq əki dərəcəsində mübarizə aparan güləşçimiz medal uğrunda İran idmançısı Biyabani Peymanı mübarizədən kənarlaşdırıb.

Dünya çempionatında 86 kq çəkidə ölkəmizi təmsil edən Kənan Əliyev yarışı gümüş medalla başa vurub. Təmsilçimiz yalnız final qarşılaşmasında rusiyalı güləşçiyə 1 xal uduzub. MOİK-in digər nümayəndəsi Roman Bəkirov (97 kq) isə Kolumbiya idmançısına qalib gələrək bürünc medala layiq görülüb.

Çempionatda qadınlar arasında 65 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Ceyla Nağızadə ardıcıl olaraq Monqolustan və Qazaxıstan idmançılarına qalib gələrək dünya çempionu adına layiq görülüb. İdmançımız bu qələbə sayəsində 33-cü dünya çempionatında Azərbaycan komandasının aktivinə ilk qızıl medalı yazdırıb.

Yunan-Roma güləşçilərimizdən Murad Məmmədov (60 kq) qızıl medal uğrunda keçirilən görüşdə Rusiya güləşçisi Canpolad Lokayevə məğlub olaraq gümüş medalla kifayətlənib. Digər güləşçimiz Ülvi Qənizadə (72 kq) də finalda rusiyalı idmançıya uduzaraq fəxri kürsünün ikinci pilləsində qərar tutub.

MOİK-in nümayəndəsi Həsən Əliyev (77 kq) macar idmançı D.Tollar (5:3), iranlı S.Afifi (10:1) və Finlandiya güləşçisi T.Halmesmyaki (5:0) üzərində inamlı qələbə qazanaraq finala çıxıb. Final görüşündə rusiyalı idmançı Çingiz Labazanov ilə qarşılaşan Həsən Əliyev rəqibini 5:2 hesabı ilə məğlub edərək qızıl medala layiq görülüb. Beləliklə, Həsən Əliyev ikinci dəfə dünya çempionluğunu qeyd edib. İdmançımız bu tutulu ilk dəfə 2016-cı ildə Makedoniyada qazanıb.

Rafiq Hüseynov (82 kq) isveçrəli F.Dietsçe üzərində təmiz qələbə qazandıqdan sonra belaruslu A.Saxnona 8:0 hesabı ilə qalib gələrək onu yarışlardan kənarlaşdırıb. Yarımfinal görüşündə təmsilçimiz rusiyalı idmançı E.Şarafudinova (2:1) məğlub olaraq bürünc medal uğrunda görüşə çıxıb. Bu qarşılaşmada Almaniya təmsilçisi R.Şvarts üzərində 5:2 hesabı ilə qalib gələn Rafiq Hüseynov dünya çempionatını üçüncü yerdə başa vurub.

Digər pəhləvanımız İslam Abbasov (87 kq) əvvəlcə Braziliya idmançısı R.Santyaqoya 9:0, sonra isə Çin təmsilçisi X.Yaona 13:4 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib. Bu mərhələdə rusiyalı rəqibi S.Kodzokova 5:2 hesabı ilə məğlub olan həmyerlimiz üçüncü yer uğrunda görüşdə Almaniya təmsilçisi ilə qarşılaşıb. Qarşılaşmada yüksək peşəkarlıq nümayiş etdirən İslam Abbasov rəqibi M.Remenspergeri böyük hesabla (8:1) məğlubiyyətə uğradaraq çempionatın bürünc medalını MOİK komandasının aktivinə yazdırıb.

Mayın 19-da Moskvada hərbçilər arasında güləş üzrə 33-cü dünya çempionatının təntənəli bağlanış mərasimi keçirilib. Mərasimdə Beynəlxalq Hərbi İdman Şurasının (CISM) rəsmi nümayəndəsi Kim Hyun Soo, Rusiya müdafiə nazirinin müavini, general-polkovnik Aleksandr Fomin, Rusiya Güləş Federasiyasının prezidenti Mixail Mamiasvili, çempionatın təşkilat komitəsinin sədr müavini Roman Kudryavtsev, hakimlər briqadasının sədri Vladimir Qriqoryev, Dünya Güləş Birliyinin (UWW) rəsmi nümayəndəsi Uve Manz, CISM-in güləş komitəsinin sədri Marko Kopella, təşkilat komitəsinin vitse-sədri Oleq Parxomenko, CISM-in Qafqaz, Qara dəniz və Balkanlar üzrə koordinatoru, ehtiyatda olan polkovnik Nevzat Varol, müxtəlif idman təşkilatlarının nümayəndələri, veteran idmançılar, Rusiya MOİK-in üzvləri, iştirakçı ölkələrin heyət rəhbərləri, yarışlarda iştirak edəcək komandaların üzvləri, hakimlər, məşqçilər, hərbi qulluqçular və mətbuat nümayəndələri iştirak ediblər.

CISM-in rəsmi nümayəndəsi Kim Hyun Soo bağlanış mərasimində çıxış edib. Çempionat bağlı elan edildikdən sonra CISM-in bayrağı gələn il yarışlara ev sahibliyi edəcək Çinin Müdafiə Nazirliyinin nümayəndəsinə təqdim edilib.

33-cü dünya çempionatında ölkəmizi Azərbaycan nümayəndə heyətinin rəhbəri, MOİK-in rəisi polkovnik-leytenant Rəşad Quliyev, sərbəst güləş üzrə komandanın rəhbəri Nazim Əlicanov, yunan-Roma güləşi üzrə komandanın rəhbəri Taleh İsrafilov, eləcə də, beynəlxalq dərəcəli hakimlər Elman İsmayılov və Sədi Quliyev təmsil ediblər.

*Səadət Hakıyeva*

# Bakı lisenziya yarışlarına ev sahibliyi edəcək

İyunun 23-də Bakı Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya verən idman gimnastikası üzrə təsnifat yarışlarına ev sahibliyi edəcək.

Dünyanın 33 ölkəsindən 58 kişi və 54 qadın oktyabrın 6-dan 18-dək Argentinanın Buenos-Ayres şəhərində təşkil olunacaq yarışlara vəsiqə qazanmaq uğrunda mübarizə aparacaq.

Kişi gimnastlar 16-17 yaş, qadın gimnastlar isə 15 yaş kateqoriyasında mübarizə aparacaqlar. Ölkəmizi isə bu yarışda Samirə Qəhrəmanova, Ağamurad Qəhrəmanov və Səməd Məmmədli təmsil edəcəklər. Təsnifat yarışlarında çoxnövçülük proqramında çıxışların nəticələrinə əsasən, hər ölkədən yalnız bir nəfər olmaqla ilk 17-likdə yer almış iştirakçılar Buenos-Ayresə getmək imkanı əldə edəcəklər.



# *Avropa çempionatında medal qazanan karateçilərlə görüş*

Gənclər və İdman Nazirliyində Serbiyanın Novi Sad şəhərində keçirilən Avropa çempionatında medal qazanan karateçilərlə görüş keçirilib.

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov parlaq nailiyyət münasibətilə karateçiləri təbrik edib, bu qələbənin xalqımızın böyük uğuru olduğunu vurğulayıb. Karatenin Olimpiya Oyunlarının proqramına salınmasından sonra idmanın bu növünə marağın sürətlə artdığını diqqətə çatdıran şöbə müdiri bildirib ki, bu nailiyyət karatenin Azərbaycanda kifayət qədər inkişaf etdiyini göstərir. Qarşıda Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının keçiriləcəyini xatırladan şöbə müdiri karateçilərimizdən bu mötəbər yarışa yeni lisenziyalar gözlənildiyini deyib.

Karateçilərin qitə birinciliyində uğurla çıxış etdiklərini diqqətə çatdıran Federasiyanın prezidenti Yaşar Bəşirov Rafael Ağayevin 11-ci dəfə Avropa çempionu adını qazanmasının əhəmiyyətini xüsusi vurğulayıb.

Xatırladaq ki, yarışda Azərbaycanı müxtəlif çəki dərəcələrində, eləcə də kata üzrə fərdi və komanda yarışlarında ümumilikdə 17 idmançı təmsil edib. İdmançılarımızdan Rafael Ağayev qızıl medal qazanaraq 11-ci dəfə Avropa çempionu adına sahib olub. Şahin Atamov (84 kq) və İrina Zaretska (68 kq) çempionatı gümüş, Nurana Əliyeva (50 kq) və Roman Heydərov (kata) isə bürünc medallarla başa vurublar.

# Dünya çempionatının başlamasına iki həftə qalıb

İyunun 5-də Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatı start götürəcək. Çempionatda 60-a yaxın ölkənin müxtəlif yaş qruplarını üzrə 2000-ə yaxın idmançının iştirak edəcəyi gözlənilir. Proqrama əsasən, iyunun 5-7-də kiçik yaşlı velosipedçilər (Challange) yarışacaqlar. İyunun 8-9-da isə gənclər və Elit kateqoriyasında yarışan BMX ustaları planetin ən güclülərini müəyyən edəcəklər.

Mötəbər yarışla əlaqədar Beynəlxalq Velosipedçilər İttifaqı və Avropa Velosipedçilər Birliyinin rəhbər vəzifəli şəxsləri də Bakıya gələcəklər. Yarışları canlı olaraq izləmək istəyən BMX həvəskarları biletləri iticket.az saytı vasitəsilə elektron qaydada və ya Veloparkdakı kassadan ala bilərlər.



İyunun 9-da çempionatın keçici bayrağı 2019-cu ildə bu yarışa ev sahibliyi edəcək Belçikanın nümayəndələrinə təqdim olunacaq. Yarışın əsas təşkilatçılarından olan Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən sifariş olunmuş və Bakı Media Mərkəzi tərəfindən hazırlanmış təqdimat çarxı da artıq sosial şəbəkələrdə yerləşdirilib.

Hazırda çempionatın keçiriləcəyi Veloparkda son tamamlama işləri aparılır. Dünya çempionatının keçirildiyi günlər (5-9 iyun) Velopark ərazisindəki istirahət və əyləncə zonasında bir sıra maraqlı tədbirlər və konsert proqramı da təşkil olunacaq. Həmin zonalara giriş pulsuzdur. Veloparka 125 və 205 nömrəli avtobuslarla, həmçinin Azneft Meydanından hərəkət edəcək xüsusi avtobuslarla getmək mümkündür.

# Yeniyetmə güləşçimiz olimpiadaya vəsiqə qazanıb

Mayın 14-dən 20-dək Makedoniyanın Skopye şəhərində keçirilən yeniyetmə güləşçilər arasında Avropa çempionatı başa çatıb.



Yığma komandamızın üzvləri çempionatı 11 (1 qızıl, 3 gümüş və 7 bürünc medalla başa vurublar.

Avropa çempionatı bu ilin oktyabrında Argentinanın Buenos Ayres şəhərində keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyırdı. Reqlamentə əsasən qazanılmış lisenziyaların sayından asılı olmayaraq, olimpiadada hər ölkə güləş növlərinin hər birində maksimum 2 idmançı ilə təmsil oluna bilər.

Sərbəst güləşçilərimiz Avropa çempionatında ümumilikdə, 5 (1 qızıl, 2 gümüş və 2 bürünc) medal qazanıblar. Bütün rəqiblərindən üstün olan Turan Bayramov (65 kq) çempionatın qızıl medalına sahib olub. Turan Bayramov həm də 65 kq çəki dərəcəsində Yeniyetmələrin III Olimpiya Oyunlarına vəsiqəni təmin edib.

Yalnız final görüşündə uduzan Fuad Mayılov (80 kq) və İslam Abuyev (110 kq) isə gümüş medalla kifayətləniblər. Bürünc medalları isə yığmamıza Kənan Heybətov (45 kq) və Əlihəsən Əmirli (48 kq) qazandırıblar. Bu nəticə ilə sərbəst güləş yığmamız komanda hesabında çempionatı Rusiya, Gürcüstan və Türkiyədən sonra dördüncü sırada başa vurub. Türkiyə, və Gürcüstan komandaları Olimpiya Oyunlarına vəsiqə qazana bilməyiblər. Beləliklə, sərbəst güləş yarışlarında da Buenos-Ayres-2018 Olimpiadasına Rusiya 3, Azərbaycan və Ukrayna isə hərəyə 1 lisenziya əldə ediblər.

Yarışın dördüncü günündə yeniyetmə qızlar mübarizəyə qoşulublar. Yığmamız 2 çəkidə təmsil olunub və çempionatı 1 bürünc medalla başa vurub. Belə ki, 46 kq-da mübarizə aparan Ayşən Yusifova bürünc medal uğrunda Almaniya təmsilçisini mübarizədən kənarlaşdırıb.

Yunan-roma güləşi üzrə yeniyetmə təmsilçilərimiz yarışdan vətənə 5 (1 gümüş və 4 bürünc) medalla qayıdıblar.

Təmsilçimiz Qurban Qurbanov (45 kq) Avropa çempionatının gümüş medalına layiq görülüb. Bütün görüşləri qələbə ilə başa vuran güləşçimiz finalda Bolqarıstan təmsilçisi ilə qarşılaşıb. Gərgin keçən qarşılaşmada həsabda irəlidə olmasına baxmayaraq görüşün bitməsinə 2 saniyə qalmış hakimlərin verdiyi yanlış qərarla güləşçimizin əldə etdiyi xallar ləğv edilib və görüş Bolqarıstan idmançısının qələbəsi ilə başa çatıb. Qurban Qurbanov gümüş medalla kifayətlənib.

Çempionatın bürünc medallarını komandamıza Sərxan Məmmədov (110 kq), Nihad Quluzadə (48 kq), Həsrət Cəfərov (51 kq) və Laçın Vəliyev (90 kq) qazandırıblar.

*Müsahibə*

# “Buenos-Ayres-2018 əvvəlki Olimpiya Oyunlarından fərqli olacaq”

## *“Açılış mərasimi şəhərin ən böyük meydanında keçiriləcək”*

Xəbər verdiyimiz kimi, oktyabrın 6-18-də Argentinanın paytaxtı Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunları təşkil olunacaq. Oyunlarda təxminən 206 ölkədən 4000-ə yaxın idmançının iştirak edəcəyi gözlənilir. 32 idman növü üzrə keçiriləcək bu mötəbər idman tədbirində Azərbaycan atletləri də təmsil olunacaqlar. İdmançılarımız Cənubi Amerikada təşkil olunacaq Oyunlara bu günə qədər 8 lisenziya əldə ediblər. Komandamız Oyunlara boks, taekvondo, gimnastika, güləş növlərində 1, üzgüçülük və stolüstü tennisdə isə 2 lisenziya əldə ediblər.

Oyunlara hazırlıq məsələləri ilə bağlı məlumat öyrənmək üçün buyaxınlarda Milli Olimpiya Komitəsinin Marketinq idarəsinin rəisi, Buenos-Ayres-2018-də iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəhbəri Mehman Kərimovla görüşdük. Müsahibimiz ona ünvanlanan sualları ətraflı cavablandırdı.



***- Mehman müəllim, buyaxınlarda Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən iclasda iştirak etdiniz. Nümayəndə heyətinin rəhbəri kimi iştirak etdiyiniz tədbirdə hansı məsələlər müzakirə olundu?***

- Bildiyiniz kimi, hər Olimpiya Oyunlarından əvvəl nümayəndə heyətinin rəhbərlərinin iclası keçirilir. Bu dəfə belə bir tədbir Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına hazırlıq məqsədi ilə bağlı Buenos-Ayresdə təşkil olundu. Bu iclasda 206 ölkədən 500-ə yaxın nümayəndə iştirak edirdi. İclasın gündəliyində Oyunlara hazırlıqla bağlı əsas məsələlərin müzakirəsi yer almışdı. Bu məsələlərə komandaların qarşılanması, “Olimpiya Kəndi”ndə yerləşdirilməsi, qidalanma, yarış yerlərinin hazırlığı, media və atletlərin Oyunlarda iştirakı daxil edilmişdi.

***- Buenos-Ayresdə Yeniyetmələrin Olimpiya Oyunlarına hazırlıq hansı səviyyədə təşkil olunub?***

- Buenos-Ayres çox qədim şəhərdir. Cənubi Amerika qitəsinin ən böyük şəhərlərindən biridir. Bu şəhərin 16 milyondan çox əhalisi var. Şəhərdə Olimpiya ab-havası çox yaxşıdır. Şəhər rəhbərliyi Oyunlara yüksək səviyyədə hazırlaşır. Biz tədbirdə olanda Təşkilat Komitəsinin sədri, Argentina Olimpiya Komitəsinin rəhbərliyi və şəhər meri ilə görüşlər keçirildi. Bir sözlə, Yeniyetmələrin Olimpiya Oyunlarına hazırlıq işləri yüksək səviyyədə davam edir.

***- Argentina paytaxtında keçiriləcək bu mötəbər yarış əvvəlki Oyunlardan nə ilə fərqlənəcək? Hər halda iştirak etdiyiniz iclasda bu məsələlər müzakirə olunub.***

- Qeyd olundu ki, Buenos-Ayres-2018 əvvəlki iki Olimpiya Oyunlarından fərqli olacaq. Əsas fərqlərdən biri açılış mərasimi ilə bağlıdır. Belə ki, Oyunların açılış mərasimi bizim adət etdiyimiz hər hansısa bir stadionda və ya idman arenasında olmayacaq. Açılış mərasimi şəhərin ən böyük meydanında keçiriləcək. Burada əsas məsələ ondan ibarətdir ki, insanlar bu mərasimi və bu oyunları izləməkdə çətinlik çəkməsin. Şəhərin əsas meydanında keçiriləcək açılış mərasimini 300 minə yaxın insanın canlı izləmək imkanı olacaq. Bu, Yeniyetmələrin Olimpiya Oyunları tarixində görünməmiş bir hadisədir. İkinci dəyişiklik ondan ibarətdir ki, azarkeşlər bu Oyunları arenalardan sərbəst izləyə biləcəklər. Həmin tədbirdə qeyd olundu ki, insanların idman arenalarına daha sərbəst qaydada gəlib Oyunları izləməyini təmin etmək üçün bilet satışı nəzərdə tutulmayacaq. Yarışları arenadan izləmək istəyən azarkeşlər qeydiyatdan keçərək qolbaq alacaqlar ki, onlar yalnız bu qolbaqlar vasitəsi ilə yarışlara baxa bilərlər. Qeyd edim ki, bu proses ödənişsiz qaydada həyata keçiriləcək.

***- Hazırlıqla bağlı sizi qane etməyən məsələlər oldumu?***

- Bəli. Oyunlara gələn milli komandaların və VİP qonaqların nəqliyyatla təminat məsələsi kəskin sayda azaldılıb. Rəsmi qaydaya görə hər bir komandaya bir avtomobil verilməsi planlaşdırılıb. Bu hədsiz dərəcədə azdır. Bütün iştirakçı ölkələrin nümayəndələri buna etiraz edərək bildirdilər ki, nəqliyyatla bu cür təmin olunma məsələsi kifayət qədər ciddi problemlər yarada bilər. Təklif etdik ki, Təşkilat Komitəsi bu məsələni yenidən nəzərdən keçirsin və ölkələr üçün daha yaxşı geniş imkanlar yaratsın. Beynəlxalq Olimpiya Komitəsinin və Oyunların qaydalarına görə adətən bütün şəhərlərin Olimpiya zolağı olur ki, Oyunlara xidmət edən nəqliyyat vasitələri tıxaclardan əziyyət çəkməsinlər. Lakin Buenos-Ayresdə belə zolaq olmayacaq. Bu məsələni həll etmək üçün alternativ variant təklif olunub. Belə ki, ictimai nəqliyyatların xüsusi zolaqları var ki, Olimpiya Oyunlarına xidmət göstərən avtobuslar da həmin zolaqla hərəkət edəcəklər. Tədbirdə iştirak edən ölkələrin nümayəndələrin əsas narazılığına səbəb olan digər məsələlərdən biri də bu oldu. Çünki, ictimai nəqliyyat üçün ayrılan həmin zolaqlar heç də şəhərin hər yerini əhatə etmir. Bu zolaqlar yalnız mərkəzi hissələrdədir. Qeyd edim ki, “Olimpiya Kəndi” şəhərin cənubunda yerləşir. Lakin bütün idman obyektləri şimal, şərq və qərb tərəfdədir. Cənubda “Olimpiya Kəndi” yerləşdiyindən şəhərin cənub və şimal hissəsi arasındakı nəqliyat rabitəsini yaratmaq məsələsi kifayət qədər çətinlik yaradacaq. Bu məsələlər bizi o qədər də qane etmədi.

***- Oyunların proqramına baxanda yeni idman növlərinin adına da rast gəlmək mümkündür.***

- Buenos-Ayres-2018 Olimpiya Oyunlarının proqramında müəyyən dəyişikliklər var. Proqrama yeni idman növləri əlavə olunub. Bu idman növlərinə karate, idman rəqsi, roller və idman dırmanması daxildir. Bundan başqa skvoş və qolf isə nümunəvi idman növləri kimi proqrama daxil edilib. Qeyd edim ki, Nankin Olimpiadasında uşu nümunəvi idman növü kimi Oyunların proqramında yer almışdı. Bunlar da Buenos-Ayres-2018-i digər iki Olimpiya Oyunlarından fərqləndirən cəhətlərdəndir. Oyunlarda rekord sayda idmançı və nümayəndə heyətinin iştirakı gözlənilir. Təxminən 4 minə yaxın idmançı və 2 minə yaxın texniki nümayəndə heyəti Argentina paytaxtına yollanacaq.








***- Yarışların təşkil olunacağı idman obyektlərində oldunuz. Burada hansısa diqqət çəkən məqamlar oldumu?***

- Qeyd etdiyim kimi, Buenos-Ayres şəhəri çox qədim tarixə malikdir və okean sahilində yerləşməsinə baxmayaraq yaşıllıqlar və parklarla zəngindir. Şəhərin əsas hissələrində böyük parklar salınıb ki, idman arenaları da məhz bu parkların içərisində yerləşir. Azarkeşlər yarışları izləməyə gedərkən parkları da gəzmək imkanı əldə edəcəklər. Demək olar ki, bütün arenalar yarışlara hazırdır. Sadəcə, həmin arenalarda müəyyən texniki avadanlıqların quraşdırılması işləri davam edir. Digər arenalarla müqayisədə isə yalnız Olimpiya Parkında müəyyən işlər qalıb ki, bu da yaxın vaxtlarda başa çatacaq. “Olimpiya Kəndi” də tam hazır vəziyyətdədir. Bütün binalar demək olar ki, lazımi avadanlıqlar və mebellərlə təchiz olunub. Sadəcə, kəndin ərazisində yaşıllaşdırma və abadlıq işləri həyata keçirilir.

**Azərbaycan idmançıları Yeniyetmələrin Yay Olimpiya Oyunlarında**

| *İl* | *İdmançı* | *Qızıl* | *Gümüş* | *Bürünc* | *Cəmi* | *Yer* |
|---|---|---|---|---|---|---|
| *Sinqapur-2010* | *12* | *5* | *3* | *0* | *8* | *11* |
| *Nankin-2014* | *21* | *5* | *6* | *1* | *12* | *10* |

***İdman növləri üzrə medallar***

| *Növ* | *Qızıl* | *Gümüş* | *Bürünc* | *Cəmi* |
|---|---|---|---|---|
| *1. Güləş* | *7* | *3* | *0* | *10* |
| *2. Boks* | *1* | *2* | *0* | *3* |
| *3. Taekvondo* | *1* | *1* | *0* | *2* |
| *4. Ağırlıqqaldırma* | *1* | *0* | *0* | *1* |
| *5. Cüdo* | *0* | *2* | *0* | *2* |
| *6. Akademik avarçəkmə* | *0* | *1* | *0* | *1* |
| *7. Atletika* | *0* | *0* | *1* | *1* |
| *Cəmi:* | *10* | *9* | *1* | *20* |

***- Azərbaycan idmançılarının da iştirak edəcəyi Oyunlarda hansı idman növlərində mükafat qazanmaq şansımız var?***

- Düzünü desəm, əvvəlki Oyunları və indiki vəziyyəti nəzərə alaraq hər hansısa bir rəqəm demək çox çətindir. İnanıram ki, lisenziyalar və qazanılan nəticələr ürəkaçan olacaq. Oyunlara hazırlıqlarımız davam edir. Komandamız bu günə qədər 8 lisenziya qazanıb. Əvvəlki olimpiadalarda ağırlıqqaldırma, güləş, boks, taekvondo, cüdo, avarçəkmə növlərində mükafatlar qazanmışıq. Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında da idmançılarımızdan uğurlu nəticələr gözləyirik. Düşünürəm ki, Buenos-Ayresdə əsasən, güləş və gimnastika idman növlərindən yüksək nəticələr əldə edəcəyik.

***Azər Əlizadə***

# Tələbələr “Ekspo 2025” Ümumdünya Sərgisi ilə bağlı məlumatlandırılıblar

***Gənclər və İdman, Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və “Bakı Ekspo 2025” Əməliyyat Katibliyinin nümayəndələri ali təhsil müəssisəsinin tələbələri üçün “Ekspo 2025” Ümumdünya Sərgisi haqqında geniş təqdimat keçiriblər.***

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təşkil olunan tədbirdə AzDBTİA-nın prorektoru Rizvan Əliyev qonaqları və tələbələri salamlayaraq, təhsilin dəyişən əmək bazarında mühüm rolundan danışıb.

Gənclər və İdman Nazirliyinin bölmə müdiri, “Ekspo səhiyyə” mövzusunun eksperti Məryəm Qafarzadə Ümumdünya Sərgisinin əhəmiyyətindən bəhs edib. O, Bakının Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə namizəd şəhər olmasını, Azərbaycanın “İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq” mövzusu ilə təmsil edildiyini deyib. M.Qafarzadə Bakı ilə yanaşı, Rusiyanın Yekaterinburq, Yaponiyanın Osaka şəhərlərinin də “Ekspo 2025” Ümumdünya Sərgisinin keçirilməsi üçün namizədliklərini irəli sürdüklərini, sərginin keçiriləcəyi şəhərin isə bu ilin noyabrında müəyyən olunacağını qeyd edib.

Daha sonra Təhsil Nazirliyinin sektor müdiri, “Ekspo təhsil” mövzusu üzrə eksperti Cəsarət Valehli, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq və demoqrafiya şöbəsinin müdir müavini, “Ekspo məşğulluq” mövzusunun eksperti Rəna Abdullayeva çıxış ediblər.



Çıxışçılar Azərbaycanın birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və Formula-1 kimi mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsindən, zəngin təşkilatçılıq təcrübəsindən, o cümlədən “Ekspo 2025”in əhəmiyyətindən bəhs edərək tələbələri layihəyə dəstək olmağa səsləyiblər.

Təqdimat zamanı Azərbaycanın və Bakının “Ekspo 2025” Ümumdünya Sərgisinə namizəd şəhər olması barədə hazırlanmış qısa filmlər də nümayiş etdirilib.



## Göygöldə Uşaq Paralimpiya İdman Festivalı təşkil olunacaq

“BP Azərbaycan” şirkətinin dəstəyi və Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin təşkilatçılığı ilə iyunun 6-8-də Göygöl Olimpiya İdman Kompleksində Uşaq Paralimpiya İdman Festivalı keçiriləcək. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunacaq festivalda sağlamlıq imkanları məhdud 110 uşaq cüdo, üzgüçülük, boccia, qolbol, stolüstü tennis, taekvondo, əlil arabasında idman rəqsi və pouerliftinq paralimpiya idman növləri üzrə yarışacaq.

Yarışlarda Gürcüstandan olan paralimpiyaçı idmançılar da iştirak edəcəklər.

Festivalın açılış mərasimi iyunun 7-də saat 10:00-da Göygöl Olimpiya İdman Kompleksində keçiriləcək. Açılış mərasimində əyləncəli-musiqili proqram təşkil olunacaq.

Qeyd edək ki, 2013-cü ildə beynəlxalq təcrübədə ilk dəfə olaraq Azərbaycan Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi yaradılıb. Komitənin yaradılmasında əsas məqsəd sağlamlıq imkanları məhdud uşaqların idmana cəlb olunması yolu ilə ehtiyat idmançıların hazırlanması və onların reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasına dəstək verməkdir. 2015-ci ildən başlayaraq, hər il respublika üzrə Uşaq Paralimpiya İdman Oyunları keçirilir.

## Kəmər döyüşünün iştirakçıları Bakıya gələcəklər

İyunun 2-də Bakıda peşəkar boks yarışması keçiriləcək. Yarış Almaniyanın Magdeburg şəhərində “Azərbaycan Mədəniyyəti” Cəmiyyətinin və uzun illərdi bu ölkədə fəaliyyət göstərən “Heydər Əliyev adına Dünya Boks Komitəsi”in təşkilatçılığı, Avropa Azərbaycanlıları Konqresinin (AAK) və “Qəbələ” İdman Klubunun dəstəyi ilə təşkil olunacaq. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan yarışda bir sıra Avropa ölkələrindən 15-dən çox idmançı mübarizə aparacaq. İdmançılar IBO-WBC dünya, WBCA continental kəmərləri uğrunda “Sərhədçi” İdman Olimpiya Mərkəzində yarışacaqlar.



# Naxçıvan cüdoçuları beynəlxalq turnirin qalibidir



***Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan cüdo üzrə beynəlxalq turnir keçirilib. Yarışda 4 ölkədən 9 komanda mübarizə aparıb. Turnirdən əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclis sədrinin 1-ci müavini Azər Zeynalov, Gənclər və İdman Nazirinin müavini İsmayıl İsmayılov, Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov və digər nümayəndələr xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.***

Sonra yarış iştirakçıları, nümayəndə heyəti ümummilli liderin Naxçıvandakı muzeyi ilə tanış olublar.

İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən yarışın açılış mərasimində əvvəlcə iştirakçı komandaların paradı olub. Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclis sədrinin 1-ci müavini Azər Zeynalov, Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov çıxış edərək ölkəmizdə dövlət səviyyəsində idmana, Olimpiya Hərəkatının inkişafına göstərilən qayğını xüsusi vurğulayıblar. Natiqlər ilk dəfə olaraq Naxçıvanda təşkil olunan cüdo üzrə beynəlxalq turnirin iştirakçılarına uğurlar arzulayıblar. Dövlət himnimiz səsləndirildikdən sonra yarış açıq elan olunub. Açılış mərasimi respublikamızın tanınmış incəsənət xadimlərinin iştirakı ilə keçirilən bədii proqramla davam etdirilib.

Beynəlxalq turnirdə Türkiyə, Gürcüstan, Rusiya və Azərbaycanın yeniyetmə cüdoçuları medallar uğrunda mübarizə aparıblar. Olimpiya sistemi ilə keçirilən komanda yarışlarında bütün rəqiblərinə qalib gələn Naxçıvan cüdoçuları qızıl medallara sahib olublar. Gürcüstan 2-ci, Türkiyə və "Bakı" komandaları isə 3-cü yeri tutublar. Beynəlxalq turnirin qaliblərinə kubok, medal, diplom və pul mükafatları təqdim olunub. Mükafatları Naxçıvan Muxtar Respublikası Ali Məclis sədrinin 1-ci müavini Azər Zeynalov, Respublika Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov və Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov təqdim edib. Sonda xatirə şəkli çəkdirilib.

## Yubiley

# Sara Nəsirova - 85

Sara Nəsirova 1933-cü il mayın 22-də Bakı şəhərində anadan olub. 1946-cı ildən bədii gimnastika bölməsində Pionerlər Sarayında məşğul olmağa başlayıb, sonra isə "Dinamo" İdman Cəmiyyətində idman gimnastikası ilə məşğul olub.

1947-ci ildə Rusiyanın paytaxtı Moskvada keçirilən bədən tərbiyəçilərin ümumittifaq paradında iştirak edib.

Zaqafqaziya və Moldova Respublikalarının Spartakiadasında ölkəmizin şərəfini qoruyub. Bədii gimnastika və idman gimnastikası üzrə Azərbaycan yığma komandasının üzvü olub və hər iki idman növündə I idman dərəcəsi normativlərini yerinə yetirib.

O, 1954-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib.

Sara Nəsirova məşqçilik fəaliyyətinə Pionerlər Sarayında başlayıb. 1961-ci ildən "Spartak" Könüllü İdman Cəmiyyətində bədii gimnastika üzrə baş məşqçi kimi çalışıb. Məşqçilik dövründə 20-dən çox idman ustası hazırlayıb.

1973-1975-ci illərdə bədii gimnastika üzrə yeniyetmələr və 1984-1985-ci illərdə Azərbaycanın yığma komandasının məşqçisi olub. Onun tələbələri yığma komandanın üzvü kimi, müxtəlif ümumittifaq yarışlarında ölkəmizin şərəfini qoruyublar.

Sara xanım, 1973-1993-cü illər ərzində uşaq evində müxtəlif bayramlara həsr olunmuş idman tədbirləri keçirib.

Bu tədbirlərin birində, 1980-ci ildə ulu öndər Heydər Əliyev iştirak edib və Sara xanımın tələbələrinin çıxışına yüksək qiymət verib.

Sara Nəsirova bədii gimnastika üzrə ölkə daxili və ümumittifaq yarışlarında hakim kimi fəal iştirak edib.

Bunları nəzərə alaraq SSRİ Nazirlər Soveti yanında Bədən Tərbiyəsi və İdman Komitəsi 1979-cu il iyulun 5-də ona bədii gimnastika üzrə "Ümumittifaq dərəcəli" hakim adını verib.

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Bədən Tərbiyəsi və İdman Komitəsi gənc nəslin inkişafında roluna görə, 2 saylı valideynləri olmayan uşaq evində müvəffəqiyyətlə işlədiyini nəzərə alaraq Sara Nəsirovanı dəfələrlə fəxri fərmanlarla təltif ediblər.

O, 1984-cü ildə "Əmək Veteranı" medalı ilə təltif olunub.

Sara xanımın həyat yoldaşı da Abas Nəsirov üzün illər idman gimnastikası üzrə yığma komandanın üzvü kimi ümumittifaq yarışlarında ölkəmizin idman şərəfini qoruyub.

Azərbaycanın Gimnastika Federasiyası və Gimnastika Veteranlar Şurası Sara Nəsirovanı yubiley münasibəti ilə təbrik edir, ona can sağlığı arzulayır.

# Avropa Həndbol Federasiyasının illik konqresi keçiriləcək

İyunun 19-20-də Şotlandiyanın paytaxtı Qlazqoda Avropa Həndbol Federasiyasının (EHF) illik konqresi keçiriləcək.

Konqresin proqramı və səsverməyə çıxarılacaq mövzular artıq təsdiqlənib.

Tədbirdə EHF-in prezidentinin, baş katibinin, texniki, yarış, metodiki, çimərlik həndbolu komissiyalarının və qanuni nümayəndənin hesabatları dinləniləcək. Həmçinin 2016-2018-ci illərə dair maliyyə hesabatları təqdim olunacaq, bu il üçün büdcə təsdiqlənəcək.

Konqresdə federasiyanın sabiq prezidenti Jan Brihaultın başçılıq etdiyi işçi qrupunun 2020-ci ildən sonra EHF-də struktur dəyişikliyi ilə əlaqədar tövsiyələri nəzərə alınıb. Bununla yanaşı, milli federasiyalar tərəfindən də təkliflər irəli sürülüb. Norveç konqreslərə müstəqil müşahidəçi dəvət edilməsini, Slovakiya nümayəndələrin təyin olunmasında peşəkarlıq məsələsinin nəzarətdə saxlanılmasını, İsveçrə həndbolçuların idman geyimlərinin üzərində reklamların əks olunmasını təklif edib.

EHF-in konqresində müzakirəyə çıxarılacaq digər məsələlər arasında 2019-cu ildəki dünya çempionatının Avropa təsnifat turnirinin püşkünün atılması, Avropa Həndbol Federasiyasinin 15-ci illik konqresinin, 2022-ci və 2024-cü illərdə keçiriləcək kişilər və qadınlar arasında Avropa çempionatlarının təşkil olunacağı yerlərin seçilməsi də var.

Ölkəmizi konqresdə AHF-nin prezidenti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və vitse-prezident Orxan Abbasov təmsil edəcək.

# "Zenit"in idmançısı Avropa çempionu oldu



Ölkədə bədən tərbiyəsi və idman hərəkatında müəyyən mövqe tutmağı bacaran "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin (BTİCİB) idmançıları indiyədək Avropa və dünya birinciliklərində, Olimpiya Oyunlarında Azərbaycanı layiqincə təmsil edərək yüksək nailiyyətlər əldə ediblər. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) dəstəyi və köməyi sayəsində "Zenit" İdman Cəmiyyəti uğurlar qazanmaqda davam edir.

"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin təmsilçiləri bugünlərdə Makedoniyanın Skopje şəhərində keçirilən yeniyetmə güləşçilər arasında Avropa çempionatında uğurla çıxış ediblər. Yığma komandamızın çempionatda qazandığı 11 (1 qızıl, 3 gümüş və 7 bürünc) medaldan ikisi məhz həmin cəmiyyətin idmançılarının payına düşür. Yeganə qızıl medalı komandamıza "Zenit"in güləşçisi Turan Bayramov qazandırıb. O həm də Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziyanı təmin edib.

Turan Bayramov (65 kq) yarımfinal görüşündə Ukrayna və Ermənistan idmançılarını mübarizədən kənarlaşdıraraq finalda Rusiya təmsilçisi ilə qarşılaşıb. İdmançımız rəqibinə aman verməyərək 9:0 hesablı qələbə ilə Avropa çempionluğunu bayram edib.

Cəmiyyətin digər yetirməsi Əlihəsən Əmirli (48 kq) isə yarışları bürünc medalla başa vurub. Güləşçimiz həlledici görüşdə Almaniya təmsilçisinə 10:0 hesabı ilə qalib gəlib.

Məlumat üçün bildirək ki, Avropa çempionu Turan Bayramov və Əlihəsən Əmirli təcrübəli məşqçi Cavid Qurbanzadənin yetirmələridir. Turan Bayramov Cavid müəllimdən əvvəl Habil İbrahimovdan dərs alıb.

# Cüdoçumuz reytinqdə irəlilədi

Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xallarının hesablanmağa başlanıldığı siyahı Azərbaycan millisinin aparıcı cüdoçuları üçün uğurlu alınıb. Komandamızın baş məşqçisi Ruslan Maşurenkonun yetirmələrindən Hidayət Heydərov reytinq cədvəlində irəliləyib. 73 kq çəki dərəcəsində yer alan həmyerlimiz daha 1 rəqibini qabaqlamaqla, 4-cü yerə yüksəlib.



Orxan Səfərov (60 kq), Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov (73 kq), Tural Səfquliyev (90 kq), Elmar Qasımov və Zelim Kotsoyev (hər ikisi 100 kq) mövqelərini qoruyublar. Onlar müvafiq olaraq, 11-ci, 18-ci, 2-ci, 14-cü, 9-cu və 17-cidi.

Yeganə dünya çempionumuz Elxan Məmmədov (100 kq) 2 pillə geriləyərək 8-ci sıraya enib. Komandamızın digər üzvü Məmmədəli Mehdiyev isə 1 pillə geriləyib. O, reytinq cədvəlinin 12-ci pilləsində qərarlaşıb.

# Dopinqlə mübarizənin strateji inkişaf istiqamətləri müzakirə edilib

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) direktoru Şəfəq Hüseynli Ümumdünya Antidopinq Agentliyinin (ÜADA) Kanadanın Monreal şəhərində keçirilən Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarında iştirak edib.

Səfər zamanı Ş.Hüseynli ÜADA-nın mənzil-qərargahında olub və bir sıra işgüzar görüşlər keçirib.

ÜADA-nın təhsil və maarifləndirmə üzrə şöbəsinin rəhbəri Toni Kanningem ilə görüşdə AMADA-nın Azərbaycanda dopinqlə mübarizə ilə bağlı keçirdiyi maarifləndirmə tədbirləri və antidopinq sahəsində beynəlxalq layihələrdə iştirakı perspektivləri müzakirə edilib.

Bundan əlavə, beynəlxalq federasiyalarla əlaqələr departamentinin rəhbəri Qabriel Zangenfaynd ilə AMADA-nın beynəlxalq idman federasiyaları ilə qarşılıqlı əməkdaşlığı genişləndirmək planları haqqında fikir mübadiləsi aparılıb.

ÜADA-nın direktor müavini, milli və regional antidopinq agentlikləri ilə əlaqələr üzrə məsul şəxs Tom Mey ilə söhbət zamanı isə Azərbaycanda dopinqlə mübarizənin strateji inkişaf istiqamətləri, həmçinin qarşılıqlı münasibətlərin genişləndirilməsi perspektivləri müzakirə edilib.

Antidopinq fəaliyyəti sahəsində beynəlxalq əməkdaşlıqda mühüm platformalardan sayılan ÜADA-nın Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin növbəti iclasları bu ilin noyabrında AMADA-nın təşkilatçılığı ilə Bakıda keçiriləcək.

# Budo üzrə Avropa çempionatı uğurla başa çatıb



Moldovanın paytaxtı Kişinyovda budo üzrə Avropa çempionatı keçirilib. 19 ölkənin iştirak etdiyi yarışda Azərbaycan idmançıları da mübarizə aparıblar. Komandamız qitə yarışında 9 idmançı ilə təmsil olunub. İdmançılarımız yarışda 8 medal (4 qızıl, 4 gümüş) qazanıb. Komandamızın yeganə qadın üzvü Fərqanə Saxrayeva (60 kq) free - kontakt üzrə yarışlarda gümüş medala layiq görülüb. Belə ki, xanım budoçumuz Türkiyə, Gürcüstan, Ukrayna və Rumıniyadan olan rəqiblərini məğlub edərək finala vəsiqə qazanıb . Çempionluq uğrunda döyüşdə aldığı zədə səbəbindən yerli idmançını məğlub etmək mümkün olmayıb.

# Qılıncoynadanlarımız "Moskva sablyası"nda güclərini sınayıblar

Rusiyada qılıncoynatma üzrə qadınlar arasında Dünya kubokunun Qran-pri mərhələsi olan "Moskva sablyası" beynəlxalq turniri keçirilib. Ölkəmizi turnirdə Sevil və Sevinc Bünyatova bacıları təmsil ediblər.

Sevinc Bünyatova qrup mərhələsində keçirdiyi 6 görüşdən 2-də qələbə qazansa da, xal hesabına görə növbəti mərhələyə yüksələ bilməyib.

Digər təmsilçimiz Sevil Bünyatova isə qrupda keçirdiyi 6 görüşdən 4-nü qalib başa vurmaqla pley-off mərhələsinə vəsiqə qazanıb. İdmançımız 1/64 final mərhələsində italiyalı sablyaçı Katerina Navarriani 15:13 hesabı ilə məğlub edib. Qılıncoynadanımızın turnirin 1/32 finalında da rəqibi İtaliya təmsilçisi olub. Sablyaçımız bu dəfə Loreta Gulotta üzərində 15:14 hesablı qələbə qazanıb. 1/16 finalda polşalı Malqorzata Kozaçuka 10:15 hesabı ilə uduzan sablyaçımız 142 iştirakçı arasında 31-ci olub.

* * *

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə mayın 18-də Yeni Ramana qəsəbəsindəki 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində qılıncoynatma üzrə ölkə kuboku turniri keçirilib.

Yarışda beş idman klubunun üzvləri çıxış ediblər.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda qızların mübarizəsində Aytəkin Həsənova qızıl medal qazanıb. Oğlanların yarışında isə Qalib Əliyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

# "Sabahın ulduzları" mükafatlandırıldı

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə 2007-ci il təvəllüdlü futbolçulardan ibarət komandalar arasında keçirilən 16-cı "Sabahın ulduzları" paytaxt çempionatına yekun vurulub.

Bakı Futbol Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirdə "Neftçi İdman Klubu"nun komandası əzmkarlıq nümayiş etdirərək çempion adını qazanıb.

Tural Kərimovun yetirmələrindən Məhəmməd Əliyev turnirin bombardiri, Əli Əliyev "ən yaxşı yarımmüdafiəçi", İlqar Məmmədov isə "ən yaxşı müdafiəçi" nominasiyasının qalibi olub.

# Tələbələr arasında respublika çempionatı davam edir

"Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə ali təhsil müəssisələri tələbələri arasında respublika çempionatı davam edir. Çempionatın təqviminə idmanın 6 növü - şahmat, stolüstü tennis, cüdo, yunan-Roma güləşi, sərbəst güləş, badminton daxil edilib.

Çempionatın stolüstü tennis idman növü üzrə yarışları "Şüa" İdman Kompleksində keçirilib.

Kişi və qadınlar arasında keçirilən yarışda fəxri kürsünün ən yüksək pilləsinə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İdman Akademiyasının komandası qalxıb.

Azərbaycan Tibb Universitetinin tələbələri ikinci, Bakı Dövlət Universitetinin komandası isə yarışı üçüncü pillədə başa vurub.



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Fiziki və mənəvi tərbiyə milli dəyərlərə əsaslanır



***Mənəviyyat dedikdə insanın daxili aləmi nəzərdə tutulur. Daxili aləmi saf, təmiz olan şəxs mənəviyyatlı şəxs hesab olunur. Mənəviyyatını qoruyan şəxs birinci növbədə özü-özünə qiymət verməlidir. Özünün, ailəsinin nüfuzunu qorumalıdır. Böyüklərə hörmət bəsləməli, kiçiklərə qayğı ilə yanaşmalıdır. Vətənpərvər olmalı, gələcəyini qurmaq üçün qarşısına məqsəd qoymalıdır. Peşəsindən , sənətindən asılı olmadan cəmiyyətə fayda verməli, gələcəyini təmin etməyi bacarmalıdır.***

Hətta genetik amillərin görkəmli araşdırıcısı Erix Fromm da mənəviyyatın, əxlaqi dəyərlərin formalaşması prosesində ictimai mühitin təsirini önə çəkir. Yəni uşaqda əxlaqi meyarlar, dəyərləndirmə sistemi onların inandığı, hörmət etdiyi insanların mühitində formalaşır. E.Fromm yazır: "Uşaq yaxşı ilə pisin fərqini dərk etməzdən əvvəl hiss edir. Onun subyektiv rəyi onun həyatında önəmli olan adamların müsbət və ya mənfi reaksiyası əsasında formalaşır".

Uşağa ən yaxın olan, şübhəsiz, onun valideynləridir. Ona görə də, ilk dəyərləndirmə meyarları ailədə formalaşır. Sonralar məntiqi təhlil qabiliyyəti formalaşdıqca yaxşı ilə pisin mahiyyətini anlayır.

İnsan mənəviyyatının kamilləşdirilməsi əsas məqsəddir.

## Təlim insanın əsas fəaliyyətlərindən biridir

Təlim psixologiyası pedaqoji psixologiyanın ən mühüm sahəsidir. Hazırda təhsil ocaqlarının qarşısında duran vəzifələrin həyata keçirilməsində təlim psixologiyası mühüm rol oynayır. Böyüməkdə olan nəslə elmlərin əsasları haqqında dərin və möhkəm biliklər vermək, onlara həmin biliklərdən yararlanmağın yollarını başa salmaq vacibdir. Məlumdur ki, təlim bəşəriyyətin daima diqqət mərkəzində olan bir sahədir. Həmin sahə hər zaman öz əhəmiyyətini qoruyub saxlayır. Bu məsələlərin həlli üzərində çalışan psixoloqlar təlim nəzəriyyəsini bir sıra istiqamətlərdə inkişaf etdiriblər.

Bunları ümumiləşdirdikdə pedaqoji psixologiyada aşağıdakı təlim nəzəriyyələri diqqəti cəlb edir. 1) izahlı illüstrativ (ənənəvi) təlim; 2) proqramlaşdırılmış təlim; 3) zehni fəaliyyətin və anlayışların mərhələlər üzrə təşəkkülü nəzəriyyəsi; 4) problemli təlim; 5) təlim nəzəri təfəkkürün inkişafı kimi; 6) tərbiyəedici təlim.

Təlim insanın əsas fəaliyyətlərindən biridir. Məktəb dövründə isə həmin fəaliyyət məktəblilərin aparıcı fəaliyyətinə çevrilir. Onun köməyi ilə şagirdlər müəyyən məlumatları, hərəkətləri və davranış formalarını mənimsəyirlər. Bu iş kor-koranə deyil, şüurlu, planlı şəkildə həyata keçirilir. Məhz buna görə də təlim prosesində aşağıdakılar nəzərdə tutulur.

a) Hər hansı bir fəaliyyət növünün uğurlu təşkili üçün lazım olan gerçəkliyin zəruri xassələri haqqında məlumatın mənimsənilməsi;

b) qarşıda duran məsələnin həllində lazımi yolları düzgün seçməklə, onlara nəzarət etməklə məlumatlardan istifadə edib, vərdişlərin bacarıqların üzə çıxmasına şərait yaradır.

## İnsanı bir şəxsiyyət kimi bütövlükdə tərbiyə etmək lazımdır

Tərbiyə şəxsiyyətin formalaşdırılmasına yönəldilmiş xüsusi fəaliyyət sahəsidir. Görkəmli pedaqoq A.S.Makarenkonun dediyi kimi, tərbiyənin mahiyyəti ondan ibarətdir ki, daha yaşlı nəsl bu prosesdə özünün təcrübəsini, özünün etirazlarını, özünün inamını özündən sonrakılara ötürür. Tərbiyə şəxsiyyətin daxili və xarici amillərin təsiri altında baş verən inkişafının idarə olunmasıdır. Ona görə də şəxsiyyətin necə formalaşması, bu prosesə təsir edən amillər diqqəti birinci növbədə cəlb edən cəhətlərdəndir. Bu baxımdan, ilkin olaraq nəyi tərbiyə etmək məsələsi, başqa sözlə, şəxsiyyətin strukturu, əlamət və keyfiyyətləri, xassələrini dəqiqləşdirmək lazım gəlir. Məlum olduğu kimi, şəxsiyyətin hər bir keyfiyyəti bir-biri ilə ayrılmaz şəkildə bağlı olan bir vahiddir. Ona görə də şəxsiyyətin hər bir əlaməti başqa əlamətləri ilə əlaqəsindən asılı olaraq çox vaxt tamamilə fərqli xarakter daşıyır, özünəməxsus əhəmiyyət kəsb edir. Ona görə də tərbiyə prosesində şəxsiyyətin formalaşmasının bu cür cəhətlərinin nəzərə alınması zəruridir. Başqa sözlə, insanı hissə-hissə deyil, bir şəxsiyyət kimi bütövlükdə tərbiyə etmək lazımdır.

## Uşaqların yaş və fərdi xüsusiyyətlərini öyrənməklə görülən işdə uğur qazanmaq olar

Tərbiyədən söhbət açarkən biz hər şeydən əvvəl məktəbli şəxsiyyətinin formalaşması haqqında düşünürük. Başqa sözlə, məktəbin və müəllimin imkanları dairəsində, şəxsiyyətin formalaşması pedaqoji psixologiyada ən zəruri məsələ kimi qarşıda durur. Hələ ibtidai hazırlıq dövrünün ilk günlərindən tərbiyə işinin düzgün qurulmaması, pedaqoji diqqətsizlik şagirdin şəxsiyyətində arzu olunmayan keyfiyyətlərin formalaşmasına gətirib çıxarır. Bu cür mənfi keyfiyyətləri aradan qaldırmaq isə yenidən tərbiyə işi tələb edir ki, bu da yeni keyfiyyətləri formalaşdırmaqdan qat-qat çətindir.



Hər şeydən əvvəl nəzərə almaq lazımdır ki, tərbiyə böyükməkdə olan nəslin şəxsiyyətinin formalaşması prosesinin idarə olunmasından ibarətdir.

Ona görə də bu proses özünün psixoloji mexanizminə malikdir. Bu mexanizmi nəzərə almadan tərbiyə işində müvəffəqiyyət qazanılacağı barədə düşünmək olmaz. Burada birinci növbədə tərbiyə prosesinin psixoloji cəhətdən bir-birilə bağlı olan aşağıdakı cəhətlərinə diqqət yetirmək lazım gəlir: tərbiyə olunan və tərbiyə edənin xüsusiyyətləri, onların qarşılıqlı münasibətləri, tərbiyənin məqsədi, tərbiyə prosesində istifadə olunan yollar və s. Məhz buna görə də tərbiyə prosesini düzgün idarə edə bilmək üçün həmin cəhətlərin hər birinin xüsusiyyəti nəzərə alınmalıdır. Yalnız bu zaman tərbiyə prosesində şəxsiyyətin tələbatları, maraq və meylləri, dünyagörüşü, əqidə və idealları, qabiliyyət və xarakteri lazımi şəkildə formalaşdırıla bilər.

Tərbiyə prosesində biz daima inkişaf edən, keyfiyyətcə dəyişən uşaqlarla işləməli oluruq. Tərbiyə olunan həmin uşaqlar özlərinin şəxsiyyətlərinin psixoloji xüsusiyyətlərinə, tələbat və motivlərinə görə bir-birlərindən fərqlənirlər. Ayrı-ayrı yaş dövrlərində bu fərqlər müxtəlifləşir və özünəməxsus tərbiyəvi iş tələb edir. Ona görə də tərbiyə prosesində müvəffəqiyyət qazanmaq üçün birinci növbədə tərbiyə olunanların yaş və fərdi xüsusiyyətlərini öyrənmək, bunu nəzərə almaq lazımdır. Məhz buna görə də hələ vaxtilə pedaqoji psixologiyanın banisi K.D.Uşinski insanı hərtərəfli tərbiyə etmək üçün onu hərtərəfli öyrənməyi tövsiyə edirdi.

Görkəmli psixoloq S.L.Rubnşteyn göstərir ki, "Uşaqları tərbiyə edə-edə və öyrədə-öyrədə öyrənmək lazımdır ki, onları öyrənə-öyrənə tərbiyə edək və öyrədək". Məhz buna görə müəllim və tərbiyəçi hər hansı bir tədbiri həyata keçirməzdən əvvəl tərbiyə etdiyi şagirdin xüsusiyyətlərini aşkara çıxarmalıdır.

## Hər şey müəllimin pedaqoji təxəyyülündən asılıdır

Tərbiyə psixologiyası sahəsində tədqiqat aparan psixoloqlar belə bir qənaətə gəlmişlər ki, şagirdləridə düzgün əxlaqi davranış motivlərinin tərbiyə edilməsi də mühüm rol oynayır. Bu baxımdan, şagirdlərin tələbat sahəsinin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Çox vaxt şagirdin davranışındakı bu və ya digər cəhətlər onun tələbatı ilə bağlı olur. Tələbatlar bir motiv kimi şagirdin davranışını şərtləndirir. Buradan tərbiyə prosesində psixoloji cəhətdən diqqət çəkən, nəzərə alınması zəruri olan bir tələb - şagirdin davranışına qiymət verərkən onun motivini müəyyənləşdirmək tələbi meydana çıxır. Psixoloqların tədqiqatları sübut etmişdir ki, motivdən asılı olaraq eyni fəaliyyət nəticəsində şagirdlərdə müxtəlif əxlaqi keyfiyyətlər formalaşa bilər. Məsələn, bir şagird öz yoldaşının düzgün olmayan hərəkəti haqqında sinif rəhbərinə xəbər verir. Şagirdi buna vadar edən motivi müxtəlif ola bilər. Ola bilsin ki, şagird öz yoldaşını bu vəziyyətdən çıxarmaq, ona kömək etmək məqsədilə sinif rəhbərindən kömək gözləyir. Yaxud sinif rəhbərinin yanında özünü ucaltmaq, onun nüfuzunu qazanmaq üçün bu cür hərəkət edir. Lakin ola bilsin ki, şagird öz yoldaşından qisas almaq üçün bu yolu tutsun.

Tərbiyə prosesində müvəffəqiyyət qazanmaq üçün təkcə şagirdlərin yaş və fərdi xüsusiyyətlərinin öyrənilməsi kifayət etmir. Burada tərbiyəvi tədbirin tətbiq edildiyi konkret şəraitin nəzərə alınması da həlledici əhəmiyyətə malikdir. Adətən konkret şərait nəzərə alınmadan tətbiq olunan, şablon tərbiyəvi tədbir istənilən nəticəni vermir, bəzən hətta mənfi təsir göstərir. Tərbiyəvi tədbir o zaman daha səmərəli rol oynayır ki, burada müəllimin pedaqoji təxəyyülü iştirak etsin. Belə olduqda müəllim konkret şəraitdən asılı olaraq tətbiq etdiyi tədbirin nə kimi nəticə verəcəyini qabaqcadan görə bilir.

## Fiziki tərbiyə yaşlı nəslin təcrübəsini gənclərə öyrədən vasitədir

Fiziki tərbiyə insanın fiziki cəhətdən təkmilləşməsinin idarə olunmasının ümumi qanunauyğunluqlarına əsaslanan bir elm olmaqla yanaşı, həm də ümumi pedaqoji qanunauyğunluqlara istinad edir.

Fiziki tərbiyənin mövzusu Azərbaycan fiziki tərbiyə sisteminin məqsədini, vəzifələrini, prinsiplərini və tərbiyənin digər tərkib hissələri ilə əlaqəsini öyrədir. Bundan əlavə, fiziki tərbiyənin mövzusu fiziki tərbiyənin vasitələrini, formalarını bu prosesdə tətbiq olunan metodları, prinsipləri, metodikanı izah edir. Məktəbyaşlı uşaqların fiziki keyfiyyətlərinin inkişafı, hərəki bacarıq və vərdişlərinin formalaşması yollarını mənimsədir. Fiziki tərbiyənin mövzusu keçmişdə mövcud təcrübəni, həmçinin müasir təcrübəni öyrənir, təhlil edir, ümumiləşdirir. Azərbaycanda fiziki tərbiyənin mövzusu milli dəyərlərə əsaslanır, milli oyunların, idman növlərinin inkişafına xidmət edir. Fiziki tərbiyə digər elmlərlə də əlaqədardır. Xüsusilə, anatomiya, biologiya, fiziologiya, gigiyena, kimya və s. Fiziki tərbiyə psixologiya, pedaqogika elmləri ilə də sıx bağlı olmaqla yanaşı, bu elmlərə əsaslanaraq təlim olunur. Bütün bunlarla bərabər, fiziki tərbiyənin mövzusuna onun tarixi, anlayışları, tədqiqat metodları, metodikası və s. daxildir.

Fiziki tərbiyə sisteminin elmiliyi dedikdə bədən tərbiyəsi və idmanın elmi cəhətdən inkişafı nəzərdə tutulur. Bu o deməkdir ki, bədən tərbiyəsi və idmanın inkişafı bu sahədə aparılan elmi-tədqiqat işlərinə əsaslanır. Bu nəzəriyyə ilə praktikanın sıx əlaqəsi nəticəsində müvəffəqiyyət qazanır. Bütün dünyada olduğu kimi, ölkəmizdə də fiziki tərbiyə sisteminin nəzəriyyə və metodikası, pedaqoqika, psixologiya, anatomiya, fiziologiya və gigiyena kimi elmi fənlərə istinad edir.

Fiziki tərbiyə mütəşəkkil pedaqoji təsirlər sistemi kimi adamların fiziki inkişaf qabiliyyətlərini, onun orqanizminin morfoloji və funksional baxımdan təkmilləşdirilməsinin təsirlər sistemini təmin edir. Başqa sözlə desək, fiziki tərbiyə - insanın fiziki inkişafının vasitəsi, həmçinin yaşlı nəslin təcrübəsini gənclərə öyrədən vasitədir. Fiziki tərbiyənin eyni zamanda bir-biri ilə əlaqəli iki tərəfi vardır: Fiziki tərbiyə dedikdə, sağlamlığın möhkəmləndirilməsi, fiziki keyfiyyətlərin qazanılması və təkmilləşdirilməsi məqsədi ilə fiziki inkişafa təsir etmək başa düşülür. Fiziki təhsil tərbiyə olunanların bilik, bacarıq və vərdişlərə yiyələnməsidir.

Fiziki mədəniyyət - cəmiyyətin ümumi mədəniyyətinin tərkib hissələrindən biri olub, insanın öz sağlamlığını möhkəmləndirməsi, fiziki qabiliyyətlərini inkişaf etdirməsi, çevik və gümrah böyüməsi üçün tarix boyu əldə edilmiş nailiyyətlərin məcmusunu özündə əks etdirir.

Fiziki tərbiyə müəllimin rəhbərliyi altında şagirdlərin öz sağlamlığını möhkəmləndirməsi, çevikliyini və gümrahlığını təmin etmələri prosesidir. Bu proses fiziki mədəniyyətin inkişaf səviyyəsinə uyğun təşkil edilməli və şagirdlərin fiziki kamilliyinə gətirib çıxarmalıdır.

Fiziki inkişaf dedikdə, istər fiziki tərbiyə prosesində, istərsə də kənar təsirlərin sayəsində orqanizmin morfoloji funksiyasının, fiziki keyfiyyət və qabiliyyətlərin dəyişməsi, formalaşması prosesi yada düşür. Fiziki kamillik isə şəxsiyyətin fəaliyyətə (əməyə, təlimə və s.) fiziki cəhətdən hazır olması zəruriliyi ilə şərtləndirilən fiziki inkişaf səviyyəsini əks etdirir. Başqa sözlə desək, fiziki kamillik cəmiyyətin konkret tarixi dövrdə əldə etdiyi fiziki mədəniyyətlə şəxsiyyətin həmin mədəniyyətə optimal yiyələnməsi arasındakı nisbəti ifadə edir.

***Anar Əhmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

*Maraqlıdır*

Olimpiya Oyunları dünyada ən mötəbər və möhtəşəm idman yarışlarından biridir. Dörd ildən bir keçirilən olimpiada yarışlarında dünyanın 200-dən çox ölkəsindən atletlər qüvvələrini sınayırlar. Əsasını qədim Yunanıstandan götürən müasir Olimpiya Oyunlarının yaranmasından 122 il ötür. Bu müddət ərzində 31 olimpiada keçirilib. Nəinki Olimpiya çempionu olmaq, Olimpiya Oyunlarında iştirak etmək belə hər idmançıya nəsib olmur.

Hər zaman səhifələrində olimpizmin, Olimpiya hərəkatının təbliğinə geniş yer verən "Olimpiya dünyası" qəzeti bu dəfə oxucularına olimpiadalardakı maraqlı və qeyri-adi hadisələr barədə məlumat verəcək.

# Olimpiya Oyunlarında baş verən qeyri-adi hadisələr

## Olimpiya bayrağındakı nöqsanı 20 il heç kim görmədi

Maraqlı hadisələrdən biri Yaponiyanın Sapporo şəhərində keçirilən XI Qış Olimpiya Oyunlarının açılış mərasiminin məşqi zamanı baş verib. Olimpiya bayrağı olimpiadanın açılış mərasiminə gətiriləndə zalda iştirak edən ayıq tamaşaçılardan biri təəccüblənir: Olimpiya xartiyasına uyğun olan 5 həlqənin rəng sıralaması pozulmuşdu. Belə ki, sıralamada mavi, sarı, qara, yaşıl və qırmızı rənglər biri-birini əvəz etməli olduğu halda, səhvə yol verilmişdi. Həmin tamaşaçı təşkilat komitəsini bu barədə xəbərdar edir. Bu hadisədən dilxor olan təşkilatçılar ilk mənbəyə müraciət etməli olurlar. Məlum olur ki, Olimpiya bayrağında həlqələrin rəngi 1952-ci ildən etibarən düz verilməyib və bunu 20 il ərzində də heç kəs müşahidə etməyib.

## Təsadüfi qol

Solt-Leyk-Siti-2002 Qış Olimpiadasında maraqlı hadisə qeydə alınıb. Bu, hokkey turnirində Belarus yığmasının oyunçusu Vladimir Kopatyanın İsveç




yığmasının qapısına vurduğu təsadüfi qolla bağlıdır. Belə ki, komandalar arasında hesab 3:3 olanda belaruslu hokkeyçi növbəti fasiləyə çıxmamışdan əvvəl mavi xətdən rəqib qapısına ötürmə edir. Və inanılmaz vəziyyət baş verir: isveçli qapıçı Tommi Salo küreyi ilə şaybanı buraxmamağa çalışsa da, alınmır. Beləliklə, final fitinə 2 dəqiqə qalmış belaruslar hesabda irəli çıxırlar. Məhz həmin təsadüfi qolun sayəsində Belarus yığması olimpiadanın yarımfinalına çıxa bilmişdi.

## Pekin-2008 Olimpiadasının talismanı və emblemi nəyi ifadə edirdi?

Pekin-2008 Yay Olimpiya Oyunlarının talismanları 5 simvolu özündə birləşdirirdi- qaranquş, balıq, panda, tibet sayqakı və olimpiya alovu. Talismanlar belə adlar qoyulmuşdu- Bey-bey, Xuan-xuan, Yinq-yinq, Jinq-jinq, Ni-ni.




Talismanların adlarının ilk hecalarından isə belə bir cümlə alınırdı: "Pekinə xoş gəlmisiniz".

Pekin-2008 Olimpiadasının qaçan insanı ifadə edən emblemi əslində "Pekin" ieroqlifi əsasında hazırlanmışdı. Emblemin konturunda çinlilər paytaxt şəhərin adını oxuya bilirdilər.

## Kofeni satan olimpiadada iştirak edə bilərdi

1932-ci ilin iyul ayında Rio-de-Janeyro şəhər limanından Los-Ancelesə yük gəmisi yola düşdü. Gəminin yük yerində 5 min kofe kisəsi var idi. Göyərtə və kayutlarda isə Los-Anceles Olimpiya Oyunlarında iştirak etməyə gedən milli komandanın üzvləri səyahət edirdilər. 69 olimpiyaçı gəmidəki kofeni sataraq ABŞ şəhərində yemək və yataq problemlərini həll etməli idilər. Braziliya hökuməti iqtisadi böhran vəziyyətində başqa çıxış yolu tapa bilməmişdi. Lakin limanların heç birində kofeyə alıcı tapılmadı.



Nəticədə, Los-Anceles limanında 69 idmançıdan yalnız 24-ü düşdü. Həmin 24 nəfər ki, özlərinin şəxsi vəsaiti vardı.

Qədim dövrdəki idman nəticələri haqda informasiyalar müasir dövrə qədər qoruyub saxlanılıb. Belə nəticələrdən biri Delfiyanın heykəlinin postamentində qeyd olunub: "Faill 55 pəncə uzunluğa tullanıb, nizə tullamada isə isə cüzi hesabla geri qalıb. Digər nəticə barədə isə Yuliy Afrikanın "Olimpiada qaliblərinin siyahısı"nda etdiyin qeyddə görmək mümkündür. Həmin siyahıda spartalı atlet, sadə və ikiqat qaçış üzrə çempion Hionid haqqında məlumat yer alıb. Burada bildirilir ki, Hionid 50 pəncə tullana bilərdi, amma alınmayıb. Beləliklə, hesablamaya görə müəyyən olur ki, Faill nizəni 28,2 m uzağa tullayıb və 16,28 m məsafəyə tullanıb. Hionid isə 15,39 m uzunluğa tullana bilib.

## Moskva-1980 Olimpiadasının boykot edilməsi



1977-ci il iyunun 10-da Ağ evdə ABŞ prezidenti Cimmi Karter Moskva-1980 Olimpiya Oyunlarının baykot edilməsi ilə bağlı çıxış edir. Ölkənin aparıcı nəşrlərinin baş redaktorları ilə məsləhətləşmələrdən sonra olimpiadaya qarşı elan edilmiş informasiya müharibəsinin ilk atəşi açılır. Həmin qəzetlər Cimm Karterin bəyanatını dərc edirlər: "Mən şəxsən, Sovet İttifaqına təcavüzkar formada və təbii ki, digər ölkələrə sülh məramı ilə çağırış etmək istəyirəm. Bildirirəm ki, indi olmasa da, 15-20 ildən sonra dünyanın hər bir nöqtəsində biz böyük nüfuza malik olacağıq".

Həmin vaxt sovet qoşunlarının Əfqanıstana yeridilməsinə hələ 2 il qalırdı. Hansı ki, məhz bu amil Olimpiada-80-nin boykot edilməsinə vəsilə olmuşdu. ABŞ prezidenti 1980-ci il yanvarın 4-də XXII Yay Olimpiya Oyunlarının boykot edilməsini rəsmi olaraq elan etdi.

Moskva-1980 Olimpiadasında oyunların rəsmi dili fransız dili oldu. Boykota görə həmin dövrdə çıxan və Amerika Olimpiya komandasına həsr olunmuş "Amerika" jurnalı ləğv edildi.

## Tennisdə ən gənc və yaşlı çempion

Tennis üzrə ən gənc Olimpiya çempionu ABŞ idmançısı Cennifer Kapriati hesab olunur. Barselona-1992 Olimpiadasında qalib olanda Cenniferin cəmi 16 yaşı var.



Britaniyalı tennisçi Corc Hillard 44 yaşında Olimpiya çempionu tituluna layiq görüldü. Bu, 1908-ci ildə Londonda keçirilən IV Yay Olimpiya Oyunlarında baş vermişdi. Corc Hillard tennis üzrə cütlüklərin yarışında fərqlənmişdi.

## 6 ay davam edən olimpiada



Olimpiya Oyunları tarixində ən uzunmüddətli yarışlar 1900-cü ildə baş tutub. Parisdə keçirilən II Olimpiya Oyunlarının təşkili beynəlxalq sərgiyə təsadüf etdiyindən çox çəkib. Olimpiadaya mayın 14-də start verilib və 5 aya yaxın, oktyabrın 28-dək davam edib.

**Səadət Hakıyeva**

*Ağırlıqqaldırma*

# Misir yığması ölkəmizdə təlim-məşq toplanışı keçib

***Ağırlıqqaldırma üzrə Misir yığma komandasının Azərbaycanda təlim-məşq toplanışı olub. Üç həftəlik hazırlıq mərhələsini Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) mərkəzi məşq bazası olan "AAAF Park" yaşayış kompleksində keçirən qonaqlar artıq vətənlərinə qayıdıblar. 30-a yaxın idmançı, məşqçi və mütəxəssis heyəti ilə gələn qonaq komandanın məşq prosesi uğurlu olub. Onlara AAAF tərəfindən hər cür dəstək göstərilib. Yığma komandanın üzvləri üçün AAAF Parkda rahat qidalanma, qalma, məşq, gəzinti və digər imkanlar yaradılıb.***

Misir Ağır Atletika Federasiyasının prezidenti Məhəmməd Məhcub bu barədə deyib: "Biz ötən il IV İslam Həmrəyliyi Oyunları zamanı da Bakıda olmuşduq. Budəfəki toplanışımız isə üç həftə davam etdi. Təxminən 30 nəfərə yaxın heyətlə məşqlərimizi etdik. Burada təşkilatçılıq, qidalanma, qalma, məşq üçün məkanlar və s. çox yaxşıdır. İnsanlar da çox qonaqpərvərdirlər. Toplanış zamanı heç bir çətinliyimiz olmadı, hazırlıq prosesimiz yüksək səviyyədə təşkil edildi. Toplanış zamanı xeyli gəzmək imkanımız da oldu, həm də yaxşı vaxt keçirdik və istirahət etdik".

Azərbaycan və Misir Ağır Atletika federasiyaları arasında aparılan müzakirələrdən sonra qərara alınıb ki, gələcəkdə hər iki ölkənin yığma komandalarının həm Misirdə, həm də digər xarici ölkələrdə birgə təlim-məşq toplanışı keçirilsin.

Misir yığma komandasından əvvəl ağırlıqqaldırma üzrə Səudiyyə Ərəbistanı millisi də üç həftəlik toplanışı məhz AAAF Parkda reallaşdırıb. Misir kollektivindən sonra ərəb regionundakı daha bir neçə ölkə və digər yığma komandalar da Azərbaycana gələrək toplanış keçməyi planlaşdırır.

*Xəbərlər*

## Paytaxt çempionatında 300-dək idmançı mübarizə aparıb

Şağan Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş alpaqut Turan döyüş sənəti üzrə açıq Bakı çempionatı keçirilib.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən təşkil olunan yarışda 20 klub və cəmiyyəti təmsil edən 300-dək idmançı iştirak edib. Müxtəlif çəki dərəcələri üzrə keçirilən yarışda qaliblər müəyyənləşib. Qaliblər Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən müvafiq dərəcəli diplom, medal və kubokla təltif olunublar.

## 1000-ci yürüş Şanxayda keçiriləcək

Gələn il Formula-1 yarışmasının 1000-ci yürüşü Şanxayda keçiriləcək. Formula-1 rəhbərliyi yubiley yarışmasını birinci Qran-Prinin (1950) keçirilmiş olduğu Silverstounda təşkil etmək istəsə də, hava şəraitinə görə bu ideyadan imtina etmək qərarına gəlib.

"Əlbəttə, biz istərdik ki, yubiley yarışması Silverstounda keçirilsin. Bu, çox gözəl və rəmzi olardı. Lakin bu ilin aprel ayında Böyük Britaniyada bizi bu ideyadan əlverişsiz hava şəraitinə görə daşındırdılar", - deyə Formula-1-in kommersiya direktoru Şon Bratçes bildirib.

Böyük Britaniya Qran-Prisi aprel ayında yalnız bir dəfə - 2000-ci ildə keçirilib və o zaman təşkilatçılar çətin hava şəraiti ilə qarşılaşıblar: güclü yağış trası, demək olar, yuyub aparmışdı.

Bratçes Şanxayda yubiley yürüşünün uğurlu olacağına əminliyini də bildirib. Vurğulayıb ki, Çin gələcək Formula-1-in bir hissəsidir.

## Komandamız 17 medalla zirvədə qərarlaşdı

Yeniyetmə boksçular arasında keçirilən "Heydər Əliyev Kuboku-2018" beynəlxalq turnirinə yekun vurulub. Turnirdə 17 medal qazanan Azərbaycan millisi qalib adına sahib olub. Sumqayıt Olimpiya İdman Kompleksində keçirilən ənənəvi yarışda Azərbaycan yığması ilə yanaşı, Qazaxıstan, Rusiya, Gürcüstan, Qırğızıstan və Ukrayna milliləri mübarizə aparıblar.

Komandamız turnirdə 5 qızıl, 5 gümüş və 7 bürünc medal qazanıb. Millimizin heyətində Əli Zamanov (48 kq), Əzrək Bəbirov (54 kq), Eldar Babayev (60 kq), Elmir Novruzov (63 kq) və Murad Allahverdiyev (80 kq) bütün rəqiblərinə qalib gələrək çempion tituluna yiyələniblər.

Bu nəticə Azərbaycanı komanda hesabında birinci yerə yüksəldib. Yarışda ikinci yeri Qazaxıstan millisi tutub. İlk üçlüyü isə Ukrayna komandası tamamlayıb. Bu komanda Sumqayıtda 9 medala sahib olub. Turnirin qaliblərinə diplom və kubok təqdim edilib.

Azərbaycan təmsilçisi Eldar Babayev turnirin ən texnikalı boksçusu adına layiq görülüb.

## Açıq Bakı çempionatının qalibləri mükafatlandırıldı

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Su İdman Sarayında ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş su polosu üzrə açıq paytaxt çempionatı keçirilib.

Çempionatda yerli idmançılarla yanaşı, Tbilisi komandası da iştirak edib. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Su İdman Sarayının komandası qalib gəlib. Su İdmanı üzrə Yüksək İdman Ustalığı Məktəbinin komandası ikinci, Tbilisi kollektivi isə üçüncü yeri tutub.

Qaliblərə müvafiq dərəcəli diplom və xatirə hədiyyələri təqdim olunub.

## Milli Aviasiya Akademiyası 15 komanda arasında fərqləndi

"Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə tələbələr arasında respublika çempionatı keçirilir. Çempionatın təqvim planına idmanın 6 növü (şahmat, stolüstü tennis, cüdo, yunan-Roma güləşi, sərbəst güləş, badminton üzrə qızlar və oğlanlar) daxildir.

Çempionata şahmat idman növü ilə start verilib. Yarış Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının (AHİTA) şahmat-dama klubunda keçirilib. Yarışda 15 komanda iştirak edib.

Respublika çempionatına daxil olan kişi və qadınlar arasında şahmat idman növü üzrə yarışda Milli Aviasiya Akademiyasının komandası qalib gəlib. Bakı Mühəndislik Universitetinin tələbələri ikinci, Azərbaycan Tibb Universitetinin komandası isə üçüncü olub.

# FUTBOL

## "Neftçi" bürünc medala sahib oldu



Ötən həftə futbol üzrə Topaz Premyer Liqasında 28-ci turun oyunları keçirilib. Turun maraqla gözlənilən oyunu "Kapital Arena" stadionunda təşkil olunub. "Sumqayıt" komandası doğma azarkeşlər önündə "Zirə" klubunu qəbul edib. Oyunda hesabı meydan sahibləri açıblar. Cavid İmamverdiyev fərqlənib - 1:0. Qoldan sonra hər iki komanda fərqlənməyə yaxın olsa da, birinci hissədə hesab dəyişilməyib. Fasilədən sonra hücumlarının kəsərini artıran "Zirə" futbolçuları oyunun 68-ci dəqiqəsində hesabı bərabərləşdirib. Aleksandr Dedov adını tabloya yazdırıb - 1:1. Qarşılaşmanın əsas vaxtına əlavə olunmuş beşinci dəqiqəsində zirəlilər hesabda önə çıxıblar. Künc zərbəsindən sonra Sadio Taunkara dəqiq baş zərbəsi ilə qələbə topunu vurub. Qalan dəqiqələrdə hesab dəyişilməyib. Beləliklə, "Sumqayit" - "Zirə" oyunu 1:2 hesablı qələbəsi ilə başa çatıb.

Digər qarşılaşmada "Neftçi" "Kəpəz" komandasının qonağı olub. Həmin görüş Gəncə şəhər stadionunda keçirilib. Gərgin mübarizə şəraitində keçən oyunda "flaqman" 1:2 hesablı qələbə qazanıb. Oyunda hesab ikinci hissənin 63-cü dəqiqəsində açılıb. Ruslan İbişov fərqlənib - 0:1. Qoldan beş dəqiqə sonra meydan sahibləri hesabı bərabərləşdirməyə nail olublar. Şəhriyar Rəhimov qapıçının səhvini bağışlamayıb - 1:1. Matçın 79-cu dəqiqəsində paytaxt təmsilçisi Lukas Emanuel Qomesin sayəsində yenə də hesabda önə keçib - 1:2. Qalan dəqiqələrdə hər iki komandanın cəhdlərinə baxmayaraq hesab dəyişməyib. Beləliklə, görüş "Neftçi" klubunun səfərdə 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Bu qələbədən sonra "Neftçi" klubu UEFA Avropa Liqasının təsnifat mərhələsinə vəsiqə qazanıb.

Turun autsayderlərinin görüşündə "Səbail" və "Keşlə" klubları üz-üzə gəlib. "Bayıl Arena"da keçirilən oyunda qonaqlar 1:0 hesabı ilə qələbə qazanıblar. Oyunda yeganə qolun müəllifi 63-cü dəqiqədə fərqlənən Rafael Məhərəmli olub.

Hazırda 62 xalı olan "Qarabağ" çempionluğu vaxtından əvvəl bayram edib. "Qəbələ" klubu 49 xalla ikinci, "Neftçi" isə 46 xalla üçüncü yerdədir. Digər pillələrdə isə müvafiq olaraq, "Zirə" (44), "Sumqayıt" (40), "Keşlə" (31), "Səbail" (23) və "Kəpəz" (14) klubları qərarlaşıblar.

## Futzal üzrə Yüksək Liqa yarışlarına yekun vurulub

Futzal üzrə Yüksək Liqada 2017-2018-ci il mövsümünə yekun vurulub. Çempionatın sonuncu turu çərçivəsində keçirilən "Neftçi" İK - "Marafon Futsal" (8:8) oyunu başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil olunub.

Ölkə çempionatının bürünc, gümüş və qızıl medalları müvafiq olaraq EKOL, "Marafon Futsal" və "Araz" komandalarına təqdim edilib.

Ən yaxşı baş məşqçisi Elşad Quliyev ("Marafon Futsal"), ən yaxşı qapıçısı Emin Kürdov (EKOL), ən yaxşı oyunçusu isə Seymur Məmmədov ("Marafon Futsal") seçilib. Mövsüm ərzində 34 qol vuran Telez Bolinya ("Araz") ölkə çempionatının bombardiri olub.

Komandalara mükafatları AFFA-nın İcraiyyə Komitəsinin üzvü Vaqif Sadıqov, AFFA-nın baş katibinin müavini Sərxan Hacıyev, Azərbaycan Futzal Federasiyasının baş katibi Mahmud Sadıqov, beynəlxalq dərəcəli hakim-inspektor Asim Xudiyev təqdim ediblər.



## AFFA-da seminar təşkil olunub

AFFA-nın inzibati binasında futbol üzrə Azərbaycan Premyer Liqasında çıxış edən klubların məşqçiləri üçün "İnstat" şirkətinin nümayəndələrinin iştirakı ilə seminar təşkil olunub.

Azərbaycan Premyer Liqasında çıxış edən futbolçuların ətraflı statistik göstəricilərinin əhəmiyyətini, həmçinin əksər klubların daha əvvəl də "İnstat" şirkəti ilə əməkdaşlığını nəzərə alaraq Azərbaycan Futbol Federasiyaları Assosiasiyası danışıqlardan sonra şirkətlə ikiillik müqavilə imzalayıb. Müqaviləyə əsasən, "İnstat" şirkəti növbəti iki mövsüm ərzində bütün milli komandaları, Premyer Liqa klublarını və AFFA-nın Gənclər Liqasını oyunların hesabatı, videoanaliz, statistika və fitness göstəricilərlə təmin edəcək.

AFFA layihənin bütün xərclərinin ödənilməsini öz üzərinə götürüb.

### Birinci Liqanın qalibləri mükafatlandırılıblar

Futzal üzrə Birinci Liqada mövsümə yekun vurulub. Turnirdə qalib gələn komandaların mükafatlandırma mərasimi keçirilib.

"Qarabağ"a bürünc, "Baku Fire"yə gümüş, "Hell Energy" komandasına isə qızıl medallar təqdim edilib.

Hikmət Bağırov ("Hell Energy") ən yaxşı baş məşqçi, Fuad Cəfərov ("Hell Energy") ən yaxşı oyunçu, Malik Rəhmanov (ADBTİA) ən yaxşı qapıçı seçilib.

Mövsüm ərzində 70 qol vurmuş Orxan Səfiyaroğlu ("Qarabağ") birinciliyin bombardiri olub.

Komandalara mükafatları Azərbaycan Futzal Federasiyasının baş katibi Mahmud Sadıqov təqdim edib.

### Yığmamız Gürcüstan millisinə məğlub oldu

20 yaşınadək futbolçulardan ibarət Azərbaycan yığması Gürcüstan millisi ilə yoldaşlıq oyunu keçirib.

"Dalğa Arena"dakı qarşılaşmanın birinci hissəsində hesab açılmayıb.

Fasilədən sonra millimiz 66-cı dəqiqədə Ziya Əzizovun vurduğu qolla hesabda irəli çıxıb - 1:0. Qoldan on dəqiqə sonra qonaqlar hesabı bərabərləşdiriblər. Muciri adını tabloya yazdırıb - 1:1. Oyunda son nöqtəni Gürcüstan komandası qoyub. David Samurkasov baxımlı qola imza atıb - 1:2.

Beləliklə, görüş qonaqların minimal hesablı qələbəsi ilə başa çatıb. Rəşad Sadıqovun yetirmələrinin may ayı üçün nəzərdə tutulan üç yoxlama matçından birincisi məğlubiyyətlə başlayıb.

Qeyd edək ki, U-20 yığmamız mayın 24-də və 27-də eyni stadionda Makedoniyanın U-21 millisi ilə iki yoxlama oyununda qüvvəsini sınayacaq.

## Dünyanın "nəhəng" klubları müsəlmanlara Ramazan təbrik ünvanlayıb




Bügünlərdə dünya müsəlmanları İslamın müqəddəs bayramlarından olan Ramazanı qeyd edir. Dünyanın tanınmış futbol klubları və həmin klubların oyunçuları Ramazan münasibətilə oruc tutan müsəlmanları təbrik edib, onlara müqəddəs ayda xoş sözlər ünvanlayıb.

- İtaliyanın adlı-sanlı klubu olan "Roma"nın rəhbərliyi sosial şəbəkələrdəki hesabında bu sözləri yazıb: "İtaliyanın paytaxtından bütün dünya müsəlmanlarına xoşbəxt Ramazan diləyirik".

- "Yuventus" klubunun sosial şəbəkəsində bu sözlər qeyd edilib: "Müqəddəs Ramazanda bütün dünya müsəlmanlarına mübarək və sülh ayı diləyirik"

- Bu həftə Çempionlar Liqasının final görüşünə çıxacaq "Liverpul" klubu da eyni jestlə diqqət çəkib: "Biz dünyada tək deyilik. Bizim milyonlarla müsəlman azarkeşimiz var. "Liverpul"un "qırmızı" azarkeşlərinə Ramazanda xeyirli günlər, dualarınız qəbul olsun".

Həmçinin "Mançester Yunayted", "Milan" ,"Arsenal", "Bavariya" klubları da öz sosial hesablarında eyni mövzuda təbriklər ünvanlayıb. Madrid "Real"ı da müsəlmanları təbrik edən futbol klubları sırasındadır. Klub müsəlmanlar üçün xüsusi videoçarx hazırlayıb. Həmin çarxda Kriştianu Ronaldo, Lukas Vasqes, İsko və Kazemiro müsəlmanları bu müqəddəs bayram münasibəti ilə təbrik edib. Həmçinin Arda Turan və Kərim Benzema da sosial şəbəkədə müsəlmanlara mübarək Ramazan diləyib.

***Hazırladı:***
***Əliyə İlyasova***

## Xəbərlər

### Klublararası dünya çempionatı yeni formatda

FİFA-nın yeni layihəsi olan klublararası dünya çempionatında iştirak edəcək komandalar müəyyənləşib. Beynəlxalq futbol qurumu 2021-ci ildə təşkil olunması planlaşdırılan yarışa aparıcı klubları dəvət edib. 24 komandanın mübarizə aparacağı turnirdə Avropanı "Real", "Barselona" (hər ikisi İspaniya), "İnter", "Yuventus", "Milan" (hamısı İtaliya), "Bavariya" (Almaniya), "Liverpul", "Mançester Yunayted" (hər ikisi İngiltərə), "Ayaks" (Hollandiya) və PSJ (Fransa) təmsil edəcək.

"Köhnə qitə"nin sonuncu təmsilçiləri isə "Mançester Siti", "Çelsi" (hər ikisi İngiltərə), "Atletiko" (İspaniya), "Porto", "Benfika" (Portuqaliya) və "Borussiya" (Dortmund, Almaniya) komandaları arasından seçiləcək.

Digər yerlər qitələr üzrə bölüşdürüləcək.Cənubi Amerikaya 3 vəsiqə veriləcək, bu materikin 4-cü komandası Okeaniyanın ən yaxşısı ilə pley-offda oynayacaq. Afrika, Asiya, Şimali Amerika konfederasiyalarının hərəsinə 2 yer veriləcək.

Qeyd edək ki, mundial 2021-ci il iyunun 10-dan 28-dək keçiriləcək.

### Qətərdəki konqresdə maraqlı qərarlar verilə bilər

İyunun 13-də Moskvada FİFA-nın növbəti konqresi keçiriləcək.

Rusiyanın paytaxtında təşkil olunacaq konqresdə 4 il sonra Qətərdə baş tutacaq dünya çempionatında iştirak edəcək komandaların sayı müzakirə olunacaq. Cənubi Amerika Futbol Konfederasiyası (KONMEBOL) DÇ iştirakçılarının sayının 32-dən 48-ə çatdırılmasını təklif edir. Bu halda dünya çempionatında oyun sayı 64-dən 80-ə çatacaq. Lakin bu təklifin qəbul olunacağı inandırıcı görünmür. Çünki 2022-ci ildə Qətərdə noyabr-dekabr aylarında keçiriləcək DÇ üçün oyun sayının artırılması problemə çevrilə bilər. 48 komandalı ilk dünya çempionatının 2026-cı ildə təşkil olunacağı güman edilir. 8 il sonrakı yarışda iştirakçı komandalar hər birində 3 komanda olmaqla 16 qrupa bölünəcəklər. Qrupda ilk 2 yeri tutan komandalar 1/16 finala keçəcək.

### DÇ-2026 uğrunda 4 ölkə mübarizə aparır

2026-cı ildə keçiriləcək futbol üzrə dünya çempionatına ev sahibliyi edəcək ölkənin adı iyunun 13-də müəyyənləşəcək.

Həmin gün Moskvada FİFA-nın növbəti konqresi keçiriləcək. Həmin konqresdə DÇ-2026-nın təşkilatçısının adı məlum olacaq. ABŞ, Meksika, Kanada və Mərakeş dünya çempionatına ev sahibliyi etməyə iddialıdır.

### "Maradonanın "Dinamo"ya gəlişi Qaqarinin kosmosa uçması kimi bir şeydir"

Belarusun "Dinamo" klubunun yarımmüdafiəçisi Pavel Nexayçik Dieqo Maradonanın Brest təmsilçisinin sükanı arxasına keçməsinə münasibət bildirib. Futbolçu açıqlamasında bildirib ki, Maradonanın gəlişi onlar üçün əsl sürpriz olub: "Biz özümüz də bütün xəbərləri internetdən oxuyuruq. Klubun belə bir məşqçini gətirməsi böyük hadisədir. Bu, bizim üçün əsl sürpriz oldu. Maradonanın "Dinamo"ya gəlişi Yuri Qaqarinin kosmosa uçması kimi bir şeydir. Əvvəlcə hamı elə bilirdi ki, bu, zarafatdır, təyinat mümkün deyil. İndi isə biz yaxşı fotoaparat almalıyıq ki, Dieqo ilə görüşdə şəkil çəkdirə bilək".

Qeyd edək ki, Maradona "Dinamo" klubu ilə 3 illik müqavilə imzalayıb.

### "Zizu" "Real"ı Fransaya dəyişir?

"Real"ın baş məşqçisi Zinədin Zidan Fransa millisinin baş məşqçisi ola bilər. Artıq Fransa Futbol Federasiyasının Zizunu maraq dairəsinə düşüb.

"Real" rəhbərliyi Zidanın işindən razı olsa da, fransız mütəxəssis klubdakı fəaliyyətinin sona yaxınlaşdığını düşünür. 45 yaşlı məşqçi mövsümün sonunda Fransa yığmasının baş məşqçisi olmaq təklifinə birmənalı yanaşmayıb.

Xatırladaq ki, Didye Deşamın Rusiyada keçiriləcək dünya çempionatından sonra tutduğu postu tərk edəcəyi gözlənilir.

### Karyerasını bitirməsə, "Liverpul"da çıxış edəcək

Bir müddət əvvəl, "Yuventus"un qapıçısı Canluici Buffonun meneceri onun mövsümün sonunda karyerasını bitirəcəyini açıqlamışdı. Artıq italiyalı qapıçı bu fikrindən daşınıb, karyerasını "Liverpul"da davam etdirmək niyyətindədir. Gəzən söhbətlərə görə, "Liverpul"un baş məşqçisi Yurgen Klopp Buffon ilə maraqlanır. Razılıq əldə olunacağı təqdirdə 40 yaşlı qapıçı ilə 1 illik müqavilə imzalanacaq. Buffonun yekun qərarını açıqlamaq üçün mətbuat konfransı keçirəcəyi gözlənilir.




### "Everton" baş məşqçi ilə yollarını ayırıb

Bu barədə klubun rəsmi saytı açıqlama verib. İngiltərəli mütəxəssisin işindən razı qalmayan rəhbərlik Sem Ellardaysın müqaviləsinə qarşılıqlı razılıq əsasında xitam verib. 64 yaşlı Sem 2017-ci ilin noyabrından "Everton" un baş məşqçisi kimi fəaliyyət göstərirdi.

Qeyd edək ki, Liverpulun təmsilçisi mövsümü 8-ci pillədə başa vurub.

# İsveç millisi ardıcıl hokkey üzrə dünya çempionu oldu

Danimarkanın Kopenhagen və Herninq şəhərlərinin ev sahibliyi etdiyi hokkey üzrə dünya çempionatında 16 komanda birincilik uğrunda mübarizə aparıb.

82-ci dəfə təşkil olunan çempionatın qızıl medalı uğrunda görüşdə İsveç və İsveçrə yığmaları qarşılaşıblar. Gərgin idman mübarizəsi şəraitində keçən oyunun əsas vaxtı 2:2 hesablı heç-heçə ilə yekunlaşıb. Overtaymda da komandalar fərqlənmədiyindən qalib bullit seriyasında müəyyənləşib. Bullit seriyasında Filip Frisberq fərqlənməklə İsveç millisinə 3:2 hesablı qələbə qazandırıb və komanda dünya çempionatının qızıl medalına sahib olub.



Bürünc medal uğrunda görüşdə ABŞ və Kanada yığmaları üz-üzə gəliblər. Rəqibini 4:1 hesabı ilə məğlub edən ABŞ hokkeyçiləri dünya çempionatının bürünc medalına sahib olublar. Çempionatın favoritlərindən hesab olunan ABŞ yığması 2015-ci ildən indiyədək ilk dəfədir mükafatçılar sırasında yer alıb. Kanada yığması isə əksinə son üç ildə ilk dəfədir ki, çempionatı mükafatsız tərk edib. Ötən üç dünya çempionatında Kanada millisi iki dəfə qızıl, bir dəfə gümüş medal qazanıb.

ABŞ millisinin hücumçusu Patrik Keyn dünya çempionatının rekordunu yeniləyib. Belə ki, hokkeyçi keçirdiyi 10 oyundan 20 xal toplayıb. Əvvələr bu rekord kanadalı Deni Hitliyə məxsus olub.

Qeyd edək ki, ötən il Almaniya və Fransanın birgə ev sahibliyi etdiyi dünya çempionatının da qalibi İsveç hokkeyçiləri olublar. Növbəti dünya çempionatı gələn il mayın 10-dan 26-dək Slovakiyada təşkil olunacaq.

# Məmməd Mir Bağır oğlu Useynov

Azərbaycan idman ictimaiyyətinə böyük itki üz verib. Ağırlıqqaldırma üzrə veteran idmançı Məmməd Mir Bağır oğlu Useynov 82 yaşında dünyasını dəyişib.

Məmməd Useynov 1936-cı il yanvarın 6-da Bakı şəhərində ziyalı ailəsində anadan olub. O, 1960-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Ömrünün 50 ildən çoxunu ağırlıqqaldırma idman növünə, ümumilikdə Azərbaycan idmanına həsr edən təcrübəli mütəxəssis uzun illər yığma komandaya rəhbərlik edib.



Əmək fəaliyyətinə "Vodnik" İdman Cəmiyyətinin Respublika Şurasında başlayan Məmməd Useynov sonrakı illərdə Azərbaycan Bədən Tərbiyəsi və İdman Komitəsində dövlət məşqçisi vəzifəsində çalışıb. Azərbaycan yığma komandasının baş məşqçisi, Azərbaycan Həmkarlar İttifaqı İdman Cəmiyyətinin boks üzrə OEUGİM-də direktor müavini, ağırlıqqaldırma üzrə UGİM direktoru, Federasiyada isə bir sıra məsul vəzifələrdə işləyib. O, beynəlxalq və ümumittifaq kateqoriyaları üzrə ilk Azərbaycan hakimlərindən biri olub. 2014-cü ildə Azərbaycan Respublikasında idmanın inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb. Məmməd Useynov Azərbaycan çempionu (1960), dəfələrlə "Vodnik" idman cəmiyyətinin mərkəzi Şurasının çempionu və rekordçusu (1960-1970) olub. O, beynəlxalq yarışların ikiqat iştirakçısı (İran 1957-1965), 1982, 1983, 1990-cı illərdə SSRİ-nin 10 ən yaxşı hakimlərinin siyahısına daxil olmuş və ümumittifaq hakimlər kollegiyasının üzvü seçilib. Ağırlıqqaldırma üzrə SSRİ idman ustası olan mütəxəssis 1965-ci ildə Ümumittifaq dərəcəli hakim, 1983-cü ildə isə Beynəlxalq dərəcəli hakim adına layiq görülüb. O, 1983-cü ildə Dünya və Avropa çempionatında hakimlik edib. Onun yetirmələrindən 17 nəfəri SSRİ idman ustası normasını yerinə yetirib.

2001-2010-ci illərdə ildə Azərbaycan milli yığma komandasının baş məşqçisi və məşqçisi kimi çalışıb. Məmməd Useynov 2001-2009-cu illərdə Milli Olimpiya Komitəsinin üzvü olub.

Müxtəlif illərdə Azərbaycan Ağır Atletika Federasiyası Prezidentinin ümumi məsələlər üzrə köməkçisi vəzifəsində çalışıb, Federasiyanın İcraiyyə Komitəsinin üzvü olub.

Azərbaycanın əməkdar məşqçisi (1990) və "Əməkdar bədən tərbiyəsi və idman xadimi" (2006) adları ilə təltif edilib.

Məmməd Useynov 2009-cu ildə Gənclər və İdman Nazirliyi tərəfindən ilin yekunlarına görə ilin ən fəal veteran idmançısı adına layiq görülüb.

Tanınmış veteran Bakıda təşkil olunan I Avropa Oyunlarının məşəl estafetində məşəli daşıyanlardan biri olub.

Azərbaycan idmanının inkişafına töhfələr verən Məmməd Useynovun əziz xatirəsi yaddaşlarda daim yaşaycaqdır.

# Federer dünyanın bir nömrəli tennisçisi oldu



Peşəkar Tennisçilər Assosiasiyasının (ATP) rəsmi saytında yerləşdirilən yeni reytinq cədvəlində isveçrəli Roje Federer birinci yeri tutub. O, bu siyahıda ispaniyalı Rafael Nadalı əvəz edib.

Ötən həftənin yekunlarına görə, Nadal Madrid Açıq çempionatında titulunu qoruya bilməyib və itirilmiş xallar nəticəsində reytinq cədvəlindəki birinci pillədən məhrum olub.

"Böyük dəbilqə" turnirləri seriyasında iyirmi qələbə qazanmış Roje Federer dəfələrlə dünyanın ən güclü tennisçisi olub. Otuz altı yaşlı idmançı ilk dəfə 2004-cü ilin fevralında ATP-in reytinq cədvəlinə başçılıq edib. Ümumilikdə isveçrəli tennisçi müxtəlif səviyyəli 97 turnirin qalibi olub.

Dünyanın ən güclü üçüncü tennisçisi titulunu almaniyalı Aleksandr Zverev qazanıb.

Qadın Tennis Assosiasiyasının (WTA) reytinq cədvəlində isə Rumıniya idmançısı Simona Halep birinciliyi əlində saxlayır. Danimarkalı Karolin Voznyaki və ispaniyalı Qarbinye Muqurusa sonrakı yerləri tuturlar.

## *Əfsanəvi basketbolçu fəxri qonaq qismində*

NBA-nın əfsanəvi basketbolçusu Şakil O' Nil "Mayami" və "Atlanta" komandlarının görüşündə fəxri qonaq qismində iştirak edib.

Şakil O' Nil matçdan sonra basketbol oynayıb və meydançada "Mayami"nin sahibinin qardaşı qızını qucağında gəzdirib. Tanınmış basketbolçu hətta beysbol da oynayıb.

Qeyd edək ki, "Mayami" bu görüşdən qalib ayrılıb.

## *Lebron Ceyms NBA-nın ən varlı oyunçusudur*

2 qat Olimpiya çempionu, 3 qat NBA çempionu Lebron Ceyms ildə 85,3 milyon dollar qazanır. "Klivlend" klubunu təmsil edən istedadlı oyunçu "Forbes" jurnalı tərəfindən 4-cü dəfə NBA-nın ən bahalı basketbolçusu elan edilib.

33 yaşlı idmançının klubdan gəliri 33,3 milyon dollar təşkil edir. Basketbolçu gəlirin böyük hissəsini (52 milyon dollar) reklamdan qazanır.

Lebron Ceymsdən sonra NBA-nın ən bahalı idmançıları sırasında 2-ci və 3-cü yerləri "Qolden Steyt" komandasının oyunçuları Stefen Karri (76,7 milyon dollar) və Kevin Dyurent (58 milyon) tuturlar.

## Entoni Çeşua 100 milyon funt-sterlinq qazanacaq

Ağır çəki dərəcəsində WBA, İBF, WBO və İBO versiyaları üzrə dünya çempionu, tanınmış boksçu "Matçrum Boxsinq" proumouter şirkəti ilə yeni müqavilə imzalayacaq.

Yeni müqaviləyə görə Entoni Çeşua 3 il ərzində 100 milyon funt sterlinq qazanacaq.

Britaniyalı boksçu son döyüşündə xal hesabı ilə Jozef Parkeri məğlub edib. Boksçu növbəti döyüşünü WBC çempionu Deontey Uaylder və ya WBA versiyasında mütləq namizəd Aleksandr Povetkinlə keçirməlidir.



# Bunları bilirsinizmi?

* 1964-cü ildə 48 yaşlı bir idmançı Los-Anceles ilə Nyu-York arasındakı məsafəni 73 gün 8 saat 20 dəqiqəyə qət edib. Hesablamaya görə, o gündə orta hesabla 68.8 kilometr qaçıb. İdmançı bu qaçış zamanı 15 kq arıqlayıb.

* İngiltərəli marafonçu C.Sonders Nyu-York stadionunda keçirilən yarışda fasiləsiz olaraq 191 km məsafəni 22 saat 49 dəqiqəyə başa vurub.

* Yuqoslaviyada şəhər stadionlarının birində futbol oyunu keçirilirdi. Tamaşaçılar oyuna maraqla baxırdılar. Topa vurulmuş zərbələrdən biri daha güclü olur. Top yüksəyə qalxır və yerə düşmür. Hamı çaşqınlıq içərisində qalır. Tamaşaçılar və oyunçular bu maraqlı hadisənin nə ilə nəticələnəcəyini gözləyirlər. Sən demə, meydançanın üstündən uçan qartal havadakı topu yem bilərək caynaqlarına alır. Yalnız stadiondan bir km uzaqlaşandan sonru qartal topu yerə buraxır.

* "Şeffild Uensdey" klubunun oyunçusu Kris Bunt enerjisini qorumaq üçün dövrə arasında jelibon ayıcıqlardan yeyirmiş. İspaniya mətbuatının yazdığına görə, "Barselona"nın ulduz futbolçusu Lionel Messinin də jelibonlara qarşı bağlılığı vardır.

* Alessandro Nesta bir vaxtlar saatlarla Playstation oynadığı üçün sol əlinin baş barmağını şikəst edib. Buna görə əməliyyat keçirən Nesta dörd həftə futboldan uzaq qalıb.



* Əfsanəvi futbolçu Qari Lineker 20 illik idman karyerasında bir dəfə də sarı kart almayıb.

* Səudiyyə Ərəbistanında 1992-ci ildə qapısından 7 və daha çox qol buraxan komandaya falaqqa cəzası tətbiq olunub.

# *Hakim bu dəfə özü cəzalandırıldı*



Serbiyadan olan futbol hakimi Srcan Obradoviç yerli çempionatın 36-cı turu çərçivəsində keçirilən matçda təyin etdiyi iki penaltiyə görə həbs olunub. Mayın 13-də Subotiça şəhərinin "Spartak" komandası öz meydanında "Radniçki"ni qəbul edib. Görüş ev sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb.

Matçda Srcan Obradoviç Subotiça klubunun xeyrinə bir sıra şübhəli qərarlar çıxarıb: ikinci hissənin əvvəlində referi qonaqların hücumçusuna iki dəfə sarı kart göstərərək, onu meydançadan qovub.

Daha sonra isə 13 dəqiqə ərzində "Radniçki"nin qapısına iki 11 metrlik cərimə zərbəsi təyin edib. Hər iki penaltini Nemanya Nikoliç qola çevirib.

Hakim barəsində iki sutkalıq həbs qətimkan tədbiri seçilib. Obradoviç futbol meydanında xidməti vəzifəsindən sui-istifadə etməkdə şübhəli bilinir.



# "Çünki mən qara dəriliyəm"

Kanadanın bir nömrəli tennisçisi Fransuaza Abanda jurnalistlərin ona ünvanladığı sualları cavablandırıb.

Abandadan həmyerlisi Ejeni Buşar kimi niyə populyar olmadığını soruşanda o, belə cavab verib: "Mənə heç vaxt Ejeni Buşar kimi hörmət etməyəcəklər, çünki mən qara dəriliyəm. Bu, faktdır!

Məlumat üçün bildirək ki, 21 yaşlı Fransuaza Abanda reytinq sıralamasında 128-ci yerdədir.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un kollektivi idman veteranı

**Məmməd Useynovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

---

Azərbaycan Ağır Atletika Federasiyasının kollektivi idman veteranı

**Məmməd Useynovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

---

"Olimpiya dünyası" qəzetinin kollektivi idman veteranı

**Məmməd Useynovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

## Tayson yenidən rinqdə

Boks üzrə ağır çəki dərəcəsində dünya çempionu Tayson Fyurinin promouteri Frenk Uorren hesab edir ki, Deontey Uaylder və Entoni Çeşua onun yetirməsi ilə döyüşmədən özlərini çempion hesab edə bilməzlər.

"Tayson Fyuri dünyanın ən yaxşı ağır çəkili boksçusudur. O, əsl çempiondur. Yetirməm ona məxsus olanları geri qaytarmaq üçün rinqə qayıdır. Heç kəs Tayson Fyuri ilə döyüşmədən özünü əsl çempion hesab edə bilməz", - deyə boksçunun promouteri bildirib.

Tayson Fyuri sonuncu dəfə rinqə 2015-ci ildə çıxıb. Həmin döyüşdə o, Vladimir Kliçkonu məğlub edərək dünya çempionu tituluna layiq görülüb. Boksçu iyun ayında yenidən rinqə çıxacaq.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54;
564-74-19